QOY ƏDALƏT ZƏFƏR ÇALSIN!



"SƏS" qəzeti mənim üçün ən əziz qəzetdir

# SƏS

Qəzet 1991-ci il yanvarın 11-dən çıxır

№ 111 (5342) 23 **iyun** 2017-ci il. "Əlincə" Azərbaycan Xeyriyyə Cəmiyyətinin orqanı. **Qiyməti 40 qəpik**

# Moldova-Azərbaycan münasibətləri dinamik inkişaf edir

*İlham Əliyev: "Bu gün biz münasibətlərimizin dinamik inkişafı üçün yaxşı təməl qoyuruq"*



Səh 2

7

**Azərbaycan ilə Moldova arasında dostluq əlaqələri möhkəmlənir**



7

**Ermənistana məxsus PUA məhv edilib**



5

**Avropalı ekspertlər: Azərbaycanın məhkəmə sistemində apardığı səmərəli islahatlar bir çox ölkələrə nümunə ola bilər**



# Moldova-Azərbaycan münasibətləri dinamik inkişaf edir

## İlham Əliyev: "Bu gün biz münasibətlərimizin dinamik inkişafı üçün yaxşı təməl qoyuruq"

***Azərbaycan Respublikasında rəsmi səfərdə olan Moldova Respublikasının Prezidenti İqor Dodonun iyunun 22-də rəsmi qarşılanma mərasimi olub. AZƏRTAC xəbər verir ki, hər iki ölkənin dövlət bayraqlarının dalğalandığı meydanda Moldova Prezidentinin şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü. Azərbaycan Prezidenti İlham Əliyev Moldova Prezidenti İqor Dodonu qarşıladı. Fəxri qarovul dəstəsinin rəisi Moldova Prezidentinə raport verdi. Moldova Respublikasının və Azərbaycan Respublikasının dövlət himnləri səsləndi. Prezident İlham Əliyev və Prezident İqor Dodon fəxri qarovul dəstəsinin qarşısından keçdilər. Azərbaycan Respublikasının dövlət və hökumət nümayəndələri Prezident İqor Dodona, Moldova nümayəndə heyətinin üzvləri Prezident İlham Əliyevə təqdim olundu. Fəxri qarovul dəstəsi hərbi marşın sədaları altında dövlət başçılarının qarşısından keçdi. Azərbaycan və Moldova prezidentləri rəsmi foto çəkdirdilər.***



İyunun 22-də rəsmi qarşılanma mərasimindən sonra Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Moldova Respublikasının Prezidenti İqor Dodon ilə təkbətək görüşü olub. Azərbaycan Prezidenti İlham Əliyev:



-Xoş gəlmisiniz. Əminəm ki, səfər yaxşı keçəcək və ikitərəfli münasibətlərin mühüm məsələlərini müzakirə edəcəyik. Bir çox məsələlər üzrə bütövlükdə fikir mübadiləsi aparacağıq. İkitərəfli münasibətlərə əhəmiyyətli dinamika vermək də vacibdir ki, çox iş görmək mümkün olsun. Sadəcə, həm rəhbərlik, həm də nazirlər, bütün əməkdaşlar fəal işləməlidirlər. Azərbaycana xoş gəlmisiniz!

x x x

Moldova Prezidenti İqor Dodon:

-Hörmətli cənab Prezident. Mən çox şadam ki, Sizin dəvətinizlə Azərbaycana bu rəsmi səfəri təşkil edə bilmişik. Bizim çox yaxşı ikitərəfli münasibətlərimiz var. Biz may ayında ölkələrimiz arasında diplomatik münasibətlərin qurulmasının 25 illiyini qeyd etmişik. Təəssüf ki, son 5 ildə hökumətlərarası komissiyanın iclasını keçirməmişik. Buna görə də çox ümid edirəm ki, bizim görüşümüz ikitərəfli münasibətlərimizə yeni impuls verəcək. Çünki potensial çox böyükdür. Hələ ki, bundan tam həcmdə istifadə olunmur. Moldovada çox böyük Azərbaycan diasporu var. Yüz illərdir ki, biz bir yerdə yaşayırıq, onlar özlərini Moldovada yaxşı hiss edirlər. Azərbaycanda bizim diaspor daha azdır. Biz dünən görüşmüşük, təxminən 10-15 nəfər. Lakin biz həmişə sülh və dostluq şəraitində yaşamışıq. Mən ümid edirəm və əminəm ki, gələcəkdə bizi daha yaxşı və gözəl nailiyyətlər gözləyir. Prezident İlham Əliyev: Çox sağ olun.

Təkbətək görüş başa çatdıqdan sonra Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Moldova Respublikasının Prezidenti İqor Dodonun geniş tərkibdə görüşü olub. Prezident İlham Əliyev:

-Hörmətli cənab Prezident. Hörmətli qonaqlar.

Sizi Azərbaycanda bir daha səmimi qəlbdən salamlayıram. Sizin gəlişinizə çox şadam. Biz artıq ikitərəfli münasibətlərin mühüm məsələlərinə, regional problemlərə dair fikir mübadiləsi aparmışıq. Bu gün biz artıq işimizi geniş tərkibdə davam etdiririk. Əminəm ki, bu səfər əməkdaşlığımızın möhkəmləndirilməsində çox mühüm addım olacaq, biz bunda maraqlıyıq. Bunun üçün çox böyük potensial var. Bugünkü fikir mübadiləsi onu göstərir ki, baş verən hadisələrə bizim yanaşmalarımız və qiymətləndirmələrimiz arasında ümumi cəhətlər çoxdur.

Ardı Səh. 3

# Moldova-Azərbaycan münasibətləri dinamik inkişaf edir

## İlham Əliyev: "Bu gün biz münasibətlərimizin dinamik inkişafı üçün yaxşı təməl qoyuruq"

Əvvəli Səh. 2

Əlbəttə, bu gün biz münasibətlərimizin dinamik inkişafı üçün yaxşı təməl qoyuruq. Həm siyasi dialoq sahəsində, həm də ticari-iqtisadi sahədə bizim münasibətlərimizə dinamizm vermək lazımdır. Potensial var, hansı məsələlərə diqqət yetirməyin lazım olduğunu bilirik. Düşünürəm ki, səfərin yekunlarına əsasən müvafiq dövlət qurumlarına bütün zəruri tapşırıqlar veriləcəkdir ki, hər istiqamət üzrə tədbirlər planı müəyyən edilsin və reallaşdırılsın. Beləliklə, mən çox şadam. Sizi bir daha salamlayıram və səfərinizin xoş keçməsini arzu edirəm.

X X X

Prezident İqor Dodon:

-Hörmətli İlham Heydər oğlu, çox sağ olun. Hörmətli dostlar.

Çox şadam ki, biz - Moldova Prezidenti və Azərbaycan Prezidenti, nəhayət, yüksək səviyyədə görüşdük. İndicə biz xatırladıq ki, son 8-10 ildə görüşməmişik. Buna görə bu görüşümüzü çox vacib hesab edirəm. Bu gün biz ali siyasi səviyyədə ikitərəfli münasibətlərimizə yeni təkan verəcəyik. Hökumətlərarası komissiyanın işində də çox böyük fasilə olub. Mənim hökumətlərarası komissiyaya rəhbərlik etmək təcrübəm var. Mən bir neçə il ərzində Moldova-Azərbaycan Hökumətlərarası Komissiyasının Moldova tərəfdən rəhbəri olmuşam. Bizim çox böyük potensialımız var və mən çox ümid edirəm ki,





ali səviyyədə görüşün nəticələrinə əsasən ən yaxın vaxtda hökumətlərarası komissiyanın işinə də yeni təkan verəcəyik.

Ümidvarıq ki, bu il hər iki tərəfdən nazirlərimizin də görüşü olacaq. Hər halda daha fəal əməkdaşlıq etmək üçün bilavasitə konkret layihələr, konkret addımlar nəzərdən keçiriləcək. Əlbəttə, bizim ticarət sahəsində müsbət dinamika var. Keçən il bu sahədə artım 30 faizdən çox olub. Lakin ticarətin həcminin 5 milyon dollara yaxın olması çox kiçik göstəricidir. Ümidvaram, hökumətlərarası komissiya çərçivəsində bizim biznesmenlərin də buraya, Bakıya səfərini təşkil edə biləcəyik ki, onlar özlərinin potensial tərəfdaşları ilə görüşsünlər.

Geniş tərkibdə görüşdən sonra Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Moldova Respublikasının Prezidenti İqor Dodon mətbuata bəyanatlarla çıxış ediblər.

Prezident İlham Əliyevin bəyanatı

-Hörmətli cənab Prezident. Hörmətli qonaqlar, əziz dostlar.

Moldova nümayəndə heyətini Azərbaycanda bir daha səmimi qəlbdən salamlamaq istəyirəm. Prezidentin səfəri ölkələrimiz arasında ikitərəfli münasibətlərdə çox mühüm hadisədir. Əminəm ki, bu səfər Moldova-Azərbaycan münasibətlərinin dinamik inkişafına yaxşı təkan verəcək.

Bu gün biz qarşılıqlı maraq doğuran məsələlərin geniş spektrini müzakirə etdik və gələcək birgə fəaliyyətimizin yollarını müəyyənləşdirdik. Biz bundan sonra da siyasi əlaqələri möhkəmləndirəcək və beynəlxalq qurumlarda birgə fəal işləyəcəyik. Prezidentin səfəri bizim bir-birimizə qarşılıqlı hörmətimizin və qarşılıqlı marağımızın göstəricisidir. Onu da qeyd etmək istərdim ki, Moldova Prezidenti cənab Dodonun Azərbaycana rəsmi səfəri onun ilk rəsmi səfərlərindən biridir. Biz onun ölkəmizə gəlişini Azərbaycana hörmət əlaməti kimi qiymətləndiririk.

Bu gün biz, həmçinin ticari-iqtisadi əməkdaşlıqla bağlı məsələləri də çox geniş müzakirə etdik. Bu sahədə yaxşı potensial var. Artıq bizim orqanlara müvafiq təlimatlar verilib ki, əmtəə dövriyyəsinin artırılması ilə əlaqədar məsələlərin razılaşdırılması prosesi sürətləndirilsin. Əlbəttə, bunun üçün ümid edirik ki, lap yaxın vaxtda hökumətlərarası birgə komissiya toplaşacaq.

Ardı Səh. 4

# Moldova-Azərbaycan münasibətləri dinamik inkişaf edir

## *İlham Əliyev: "Bu gün biz münasibətlərimizin dinamik inkişafı üçün yaxşı təməl qoyuruq"*





Əvvəli Səh. 3

Çoxdan bəri toplaşmayan komissiyanın bu iclasında qarşılıqlı ticarətin necə artırılması, investisiyalar üzrə hansı imkanların olması, bizim şirkətlərin birgə iştirak edə biləcəkləri hansı infrastruktur layihələrinin mövcud olması kimi mühüm məsələlər müzakirə ediləcək. Yəni, bu məsələlər bloku da böyük əhəmiyyət kəsb edir, çünki ticari-iqtisadi münasibətlərin bugünkü səviyyəsi, əlbəttə, bizi qane edə bilməz. Biz bilirik ki, qat-qat artıq potensial var. Energetika və nəqliyyat sahələrində əməkdaşlığın da böyük perspektivləri var. Biz Azərbaycanda çoxlu nəqliyyat və enerji layihələri həyata keçiririk. Bu layihələr artıq çoxdan ölkəmizin hüdudlarından kənara çıxıb. Bu istiqamətdə moldovalı tərəfdaşlarımızla əməkdaşlıq etmək maraqlı olardı.

Bu gün biz regionlararası əlaqələr məsələlərini də müzakirə etdik. Bu sahədə ölkələrimizin müxtəlif regionları arasında münasibətlərin strukturlaşdırılması və ya formalaşdırılması üzrə konkret addımlar nəzərdə tutmuşuq. Əlbəttə, humanitar əməkdaşlıqla bağlı məsələlər də müzakirə edilib. Moldova Prezidenti mənə dedi ki, dünən o, Azərbaycandakı moldav icmasının nümayəndələri ilə görüşüb. Moldovadakı Azərbaycan diasporu da çox fəal işləyir və Prezidentin onlara göstərdiyi diqqətə görə ona təşəkkür edirəm. Bu da ikitərəfli münasibətlərdə mühüm amildir.

Əminəm ki, bugünkü səfər münasibətlərimizin inkişafında mühüm mərhələ olacaq, bizim münasibətlərə zəruri dinamizm verəcək və çox mühüm məsələlərin həllinə kömək edəcək. Bununla da ölkələrimizi və xalqlarımızı yaxınlaşdıracaq.

Mən cənab Prezidentə ölkəmizə gəldiyinə görə təşəkkür edirəm. Hörmətli cənab Prezident, Sizə və dost Moldova xalqına yeni uğurlar və firavanlıq arzu edirəm. Sağ olun.

x x x

Prezident İqor Dodonun bəyanatı

-Çox sağ olun cənab Prezident. Əvvəla, Azərbaycana, Bakıya səfər etmək üçün rəsmi dəvətə görə təşəkkürümü bildirmək istəyirəm. Ölkələrimizin prezidentləri çoxdan idi ki, görüşmürdülər və əminəm ki, ali siyasi səviyyədə görüş ikitərəfli münasibətlərimizə yeni təkan verəcək.

Biz çox böyük məsələlər blokunu müzakirə etdik, lakin əgər onları strukturlaşdırsaq, onda əsasən üç istiqamət alınacaq. Bunlar iqtisadiyyat, humanitar-sosial və siyasi istiqamətlərdir. İqtisadiyyata gəldikdə, vəzifə ən yaxın vaxtda hökumətlərarası komissiyanın iclasını keçirməkdir. Təəssüf ki, 2012-ci ildən bəri hökumətlərarası komissiya rəhbərlərinin nazirlər səviyyəsində iclasları keçirilməyib. Çox ümid edirik ki, həmin iclas yaxın vaxtlarda, yaxşı olardı bu ilin sonunadək keçirilsin.

Hökumətlərarası komissiyanın iclasının keçirilməsi ilə paralel olaraq biz ikitərəfli iqtisadi münasibətlərimizə yeni təkan vermək üçün iki ölkənin iş adamlarının görüşünü təşkil etməyi planlaşdırırıq. Bu sahədə yaxşı dinamikamız var, 2016-cı ildə qarşılıqlı ticarətin həcmi 30 faizdən çox artıb. Lakin əgər rəqəmlərə müraciət etsək biz hələ ki, 5 milyon dollar səviyyəsindəyik. Bu da çox aşağı səviyyədir. Mən əminəm ki, bizim potensialımız qat-qat artıqdır.

Sosial və humanitar layihələrə gəldikdə, bizim ölkədə, Moldovada bəzi sosial layihələrin mümkünlüyünü müzakirə etdik. Biz Moldovanın regionlarında, xüsusən Qaqauziyada bəzi layihələri müzakirə etdik. Mənimlə bərabər Qaqauziyanın rəhbəri - başqanı da nümayəndə heyətinin tərkibindədir. Çox ümid edirəm ki, biz Moldova Respublikasının regionlarında, xüsusən Qaqauziyada və güman edirəm ki, başqa regionlarda da bəzi konkret sosial layihələrin icrasına başlayacağıq.

Çox ümid edirəm ki, ən yaxın vaxtda siyasi sahədə yeni konkret addımlar atacağıq. Ola bilsin ki, lap yaxın vaxtlarda bizim təkcə prezidentlər, hökumətlərarası komissiya səviyyəsində deyil, həm də siyasi partiyalar səviyyəsində əməkdaşlığımız üçün müəyyən partiyalararası razılaşmalar da imzalanacaq. Qoy siyasi partiyalar da öz aralarında əməkdaşlıq etsinlər.

Mən Prezident İlham Əliyevi Moldova Respublikasına rəsmi səfərə dəvət etdim. Onun Moldovaya sonuncu rəsmi səfəri 2005-ci ildə olub. Çox ümid edirəm ki, Azərbaycan Prezidentinin gələn il Moldova Respublikasına səfər etməyə imkanı olacaq və o vaxta qədər hansı konkret işlər görüldüyünü həmin səfər çərçivəsində nəzərdən keçirəcəyik. Buna görə də bizim nazirlərə tövsiyə edirəm ki, bugünkü görüşümüzdən sonra gələn il üçün konkret nəticələr əldə olunsun.

İyunun 22-də dövlət başçılarının mətbuata bəyanatlarından sonra Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin adından Moldova Respublikasının Prezidenti İqor Dodonun şərəfinə rəsmi nahar verilib.

## *Rəsmi xronika*

Prezident İlham Əliyev Azərbaycanın maşınqayırma sənayesi işçilərinə "Əməkdar mühəndis" fəxri adının verilməsi haqqında Sərəncam imzalayıb.

***

Azərbaycan Prezidenti İlham Əliyev Lüksemburqun Böyük Hersoqu Anriyə təbrik məktubu göndərib. Təbrikdə deyilir: "Əlahəzrət, Lüksemburqun milli bayramı münasibətilə Sizi və Sizin simanızda bütün xalqınızı şəxsən öz adımdan və Azərbaycan xalqı adından səmimi qəlbdən təbrik etməkdən böyük məmnunluq duyuram. Bu əlamətdar gündə Sizə möhkəm cansağlığı və xoşbəxtlik, dost Lüksemburq xalqına daim sülh və rifah diləyirəm".

***

Prezident İlham Əliyev Eldar Əzizovun 2-ci dərəcəli "Vətənə xidmətə görə" ordeni ilə təltif edilməsi haqqında Sərəncam imzalayıb. Sərəncamda qeyd olunur ki, Azərbaycan Respublikasının ictimai-siyasi həyatında fəal iştirakına görə Eldar Əziz oğlu Əzizov 2-ci dərəcəli "Vətənə xidmətə görə" ordeni ilə təltif edilsin.

***

Prezident İlham Əliyev "Dini etiqad azadlığı haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə" Azərbaycan Respublikasının 2017-ci il 16 may tarixli 674-VQD nömrəli Qanununun tətbiqi haqqında və "Dini etiqad azadlığı haqqında" Azərbaycan Respublikasının Qanununa əlavələr və dəyişikliklər edilməsi barədə" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2009-cu il 29 may tarixli 97 nömrəli Fərmanında dəyişiklik edilməsi barədə Fərman imzalayıb.

***

Prezident İlham Əliyev "Yerin təkindən istifadənin dövlət tənzimlənməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2003-cü il 23 oktyabr tarixli 975 nömrəli Fərmanında dəyişikliklər edilməsi haqqında Fərman imzalayıb.

***

Prezident İlham Əliyev "Pasportlar haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2017-ci il 16 may tarixli 671-VQD nömrəli Qanununun tətbiqi haqqında Fərman imzalayıb.

***

Prezident İlham Əliyev "Telekommunikasiya haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə" Azərbaycan Respublikasının 2017-ci il 16 may tarixli 672-VQD nömrəli Qanununun tətbiqi və "Telekommunikasiya haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2005-ci il 9 avqust tarixli 277 nömrəli Fərmanında dəyişikliklər edilməsi haqqında Fərman imzalayıb.

# Avropalı ekspertlər: Azərbaycanın məhkəmə sistemində apardığı səmərəli islahatlar bir çox ölkələrə nümunə ola bilər

## Ədliyyə naziri Fikrət Məmmədovun AZƏRTAC-a müsahibəsi

***Ölkəmizdə məhkəmə fəaliyyətinin təkmilləşdirilməsi, ədalət mühakiməsinin səmərəliliyinin artırılması ilə bağlı məqsədyönlü islahatlar aparılır, vətəndaşların müraciət imkanlarının asanlaşdırılması, elektron məhkəmə sisteminin tətbiqi üzrə mühüm işlər görülür, məhkəmə hakimiyyətinin yüksək statusuna uyğun yeni müasir infrastruktur yaradılır. Bununla əlaqədar oxucularımıza ətraflı məlumat vermək üçün ədliyyə naziri, Məhkəmə-Hüquq Şurasının sədri Fikrət Məmmədovun fikirlərini öyrənmək istədik.***





***- Hörmətli Fikrət müəllim, mətbuatda xəbər verildiyi kimi, bu günlərdə Azərbaycan Prezidenti İlham Əliyevin iştirakı ilə Bakı şəhərinin Nərimanov Rayon Məhkəməsi üçün yeni müasir inzibati binanın açılışı olub. Bu münasibətlə Sizi, məhkəmə hakimiyyətinin təmsilçilərini təbrik edirik. Bu yeni binanın üstünlükləri barədə oxucularımıza məlumat verməyinizi xahiş edirik.***

- Möhtərəm Prezidentimiz cənab İlham Əliyevin məhkəmə hakimiyyətinə verdiyi böyük önəmin təzahürü olaraq Nərimanov Rayon Məhkəməsinin yeni inzibati binasının açılışını şəxsən həyata keçirməsi hər bir məhkəmə və ədliyyə işçisi tərəfindən dərin minnətdarlıq hissi ilə qarşılanıb. Bu, dövlətimizin başçısının iştirakı ilə istifadəyə verilən beşinci məhkəmə binasıdır.

Ümumiyyətlə isə son illər məhkəmə infrastrukturunun müasirləşdirilməsi çərçivəsində ölkəmizdə konseptual baxımdan yeni olan, öz funksionallığı ilə fərqlənən Bakı şəhərinin Sabunçu və Şəki Məhkəmə kompleksləri, paytaxtın Yasamal, eləcə də Gəncə, Oğuz, Gədəbəy, Quba və İmişli rayon məhkəmələri üçün yeni binaların və komplekslərin açılışları olub. Şəki Məhkəmə Kompleksinin açılışı zamanı dövlətimizin başçısı məhkəmə və ədliyyə işçiləri ilə keçirdiyi müşavirədə proqram xarakterli çıxış edərək məhkəmə fəaliyyətinin təkmilləşdirilməsi ilə bağlı tövsiyə və tapşırıqlarını verib.

Bu sahədə islahatlar davam etdirilir, hazırda 9 məhkəmə üçün müasir binaların inşası aparılmaqdadır.

Qeyd etməliyəm ki, digər müasir binalarda olduğu kimi, inzibati və ictimai zonalardan ibarət olan Nərimanov Rayon Məhkəməsinin yeni binası da müasir informasiya-kommunikasiya texnologiyaları ilə təchiz olunub. Burada "Elektron məhkəmə" informasiya sisteminin komponentlərinin tətbiqi, o cümlədən məhkəmə zallarında proseslərin dəqiq və sürətlə protokollaşdırılması və audio-video yazılışların aparılması, elektron sənəd dövriyyəsi və sair ilə bağlı bütün zəruri infrastruktur yaradılıb.

Eyni zamanda, vətəndaşların müraciət imkanlarının asanlaşdırılması və məlumatlılığın təmin edilməsi məqsədilə məhkəmə prosesləri və onların keçiriləcəyi tarix, vaxt, məhkəmə zalı, hakimlər və digər məsələlərlə bağlı informasiyanı rahat əldə etməyə imkan yaradan müasir elektron informasiya köşkləri quraşdırılıb. Həmçinin vətəndaşlara tibb, iaşə xidmətlərindən istifadə etmək üçün əlverişli şərait yaradılıb, körpə uşaqlı valideynlər üçün xüsusi otaqlar ayrılıb.

Bütün bunlar məhkəmə fəaliyyətinin daha səmərəli təşkil olunmasına, ədalət mühakiməsinə çatımlılığın asanlaşdırılmasına, onun səmərəsinə və keyfiyyətinə əsaslı təsir göstərir, insanlara daha əlverişli və rahat şərait yaradır.

***- Bilirik ki, məhkəmə sistemində aparılan islahatlara beynəlxalq qurumlar tərəfindən də böyük maraq göstərilir. Bu mənada Avropa Şurası, Dünya Bankı xüsusi qeyd olunmalıdır...***

- Doğrudan da insan haqlarının etibarlı təminatına yönəlmiş məhkəmə islahatlarımıza beynəlxalq qurumlar tərəfindən böyük maraq göstərilməsi, əldə olunan nailiyyətlərin təqdir olunması hər birimizdə iftixar hissi doğurur. Avropa Şurasının mühüm təsisatı olan Ədalət Mühakiməsinin Səmərəliliyi üzrə Avropa Komissiyasının (CEPEJ) bütün üzv dövlətlərdə yayılan dövrü nəşrində Azərbaycanda həyata keçirilən məhkəmə islahatlarına böyük önəm verilərək buna ayrıca bölmə həsr edilib. Avropalı ekspertlər Azərbaycan hakimiyyətinin bu sahədə gördüyü işləri yüksək qiymətləndirib və belə qənaətə gəliblər ki, ədalət mühakiməsi sistemində səmərəli islahatların aparılması, məhkəmələrin unikal infrastrukturunun yaradılması, ən müasir informasiya texnologiyalarının və yeniliklərin tətbiqində Azərbaycan bir çox Avropa ölkələrinə nümunə ola bilər.

Eyni zamanda, bu sahədə islahatların mütərəqqiliyini və uğurlu nəticələrini görən nüfuzlu beynəlxalq maliyyə qurumu olan Dünya Bankı ilə səmərəli əməkdaşlıq qurularaq məhkəmə infrastrukturunun müasirləşdirilməsi, elektron məhkəmə sisteminin tətbiqi, mediasiya, yuvenal ədliyyə və digər sahələr üzrə birgə layihələr həyata keçirilir.

Dünya Bankı Azərbaycanda ədliyyə sahəsindəki layihələri ən uğurlu layihələrindən biri kimi qiymətləndirib və "Vətəndaşlara yüksək səviyyəli xidmətlərin göstərilməsi məqsədi ilə müasir infrastrukturun yaradılması" nominasiyasının qalibi elan edib.

***- Fikrət müəllim, məhkəmə sistemində aparılan islahatlar, həmçinin məhkəmələrə ictimai etimadı yüksəldir. Bunun təzahürü olaraq, yəqin ki, ədalət mühakiməsini həyata keçirən hakimlərin də iş yükü xeyli artıb...***

- Elədir. Görülmüş kompleks tədbirlər nəticəsində cəmiyyətdə məhkəmələrə inam xeyli artıb. Artıq insanlar pozulmuş hüquqlarının bərpası üçün məhkəməyə müraciət etməyə daha çox üstünlük verirlər. Dövlətimizin başçısının 2014-cü il 13 fevral tarixli Sərəncamına uyğun olaraq məhkəmə fəaliyyətinin elektronlaşdırılması və bu məqsədlə elektron məhkəmə sisteminin tətbiqi ilə vətəndaşlar məhkəmələrə, həmçinin elektron qaydada müraciət etmək imkanı əldə ediblər. Eyni zamanda, Dünya Bankı ilə birgə həyata keçirilən "Mütərəqqi ədliyyə xidmətləri və müasir məhkəmə infrastrukturu" layihəsi çərçivəsində məhkəmə sisteminin vahid internet portalı (www.courts.az) yenilənərək zənginləşdirilib, o cümlədən portalda "E-məhkəmə" bölməsi yaradılıb.

Vətəndaşlar portal vasitəsilə məhkəmələr barədə daha ətraflı məlumatları əldə etmək, "şəxsi kabinetdən" istifadə etmək, iqtisadi mübahisələrlə bağlı elektron qaydada iddia ərizələri vermək, baxılan işlər, keçirilən iclaslar və çıxarılan qərarlar barədə elektron qaydada məlumatları almaq, məhkəmə rüsumlarını elektron qaydada ödəmək və sair imkanı qazanıblar.

Qeyd etmək istərdim ki, cari ilin sonunadək elektron məhkəmə sistemi ölkə üzrə bütün məhkəmələrin 60 faizini əhatə edəcək. Eyni zamanda, sistemin tərkib hissəsi olan "elektron icra"nın yaradılması üzrə tədbirlər görülərək icra qurumlarında onun bir sıra komponentlərinin tətbiqinə başlanılıb. Cari ilin əvvəlindən isə iqtisadi mübahisələr üzrə məhkəmə iclaslarının fasiləsiz video-audio yazısının aparılması təmin olunur.

Sözsüz ki, ədalət mühakiməsinə çıxışın xeyli asanlaşması məhkəmələrdə baxılan işlərin sayının kəskin artmasına gətirib çıxarıb. Məhkəmə statistikasına diqqət yetirsək görərik ki, yeni məhkəmə sisteminin fəaliyyətə başladığı 2000-ci illə müqayisədə məhkəmələrdə baxılan mülki xarakterli işlərin sayı 21 dəfə artaraq 470 mini ötüb. Lakin buna baxmayaraq, hakimlərimiz iş yükünün öhdəsindən layiqincə gəlməyə çalışırlar. Təsadüfi deyil ki, birinci instansiya məhkəmələri tərəfindən mülki xarakterli işlər üzrə çıxarılmış qərarların təxminən 98 faizi sabit qalıb.

Ötən dövrdə hakimlərin sayının iki dəfə artırılmasına baxmayaraq, ölkəmizdə hakimlərin əhaliyə nisbətdə sayı da Avropa dövlətləri ilə müqayisədə daha azdır, hər 100 min nəfərə 6 hakim düşür. Halbuki, bəzi Avropa dövlətlərində bu göstərici 20-dən çoxdur. Hazırda vakant hakim ştatlarının komplektləşdirilməsi üzrə tədbirlər görülür, 126 nəfər hakimliyə namizəd şəffaf seçim əsasında imtahanlardan uğur qazanaraq Ədliyyə Akademiyasında tədris kursundadır.

Əlbəttə, iş yükünün azaldılmasına təkcə hakimlərin sayının artırılması ilə nail olmaq mümkün deyil. Bununla əlaqədar məhkəmə fəaliyyətinin səmərəliliyinin artırılması, məhkəmələrin iş yükünün azaldılması ilə bağlı təhlillər aparılır, mülki xarakterli işlərin məhkəmədən kənar həlli yolları axtarılır, bu sahədə beynəlxalq təcrübə öyrənilir.

Məhkəmələrin çıxardıqları qərarların icrasına xitam verilməsi səlahiyyətlərinin icra məmurlarına verilməsi məhkəmələrdə iş yükünün azalmasına təsir göstərib, həmçinin bu sahədə operativliyə nail olunub, əlavə yazışmalara son qoyulub, vaxta və dövlət xərclərinə qənaət edilib. Bununla yanaşı, vətəndaşların hüquqlarının etibarlı təmin olunması məqsədilə icra məmurunun qərarından məhkəməyə şikayət vermək hüququ təsbit edilib.

Eyni zamanda, mülki xarakterli işlərin təxminən 60 faizini əmr icraatı qaydasında baxılan mübahisəsiz pul və əmlak tələbləri ilə bağlı işlər təşkil edir. Bu sahədə inkişaf etmiş xarici dövlətlərin təcrübəsi göstərir ki, əmr icraatı ilə bağlı işlərə məhkəmədən kənar mərkəzləşdirilmiş formada elektron qaydada baxılır. Bununla əlaqədar xüsusi proqram təminatı yaradılıb, bu cür işlərə elektron sistemlər tətbiq olunmaqla ən qısa müddətdə baxılması mexanizmləri işlənilir, müvafiq qanun layihələri hazırlanır.

Düşünürəm ki, bu sahədə yeni prosedurun tətbiqi məhkəmələrin iş yükünün azalmasına, məsələnin operativ həllinə, insan resurslarının səmərəli istifadəsinə, işlərə daha qısa müddətdə baxılmasına öz müsbət təsirini göstərəcək.

Mübahisələrin məhkəmədən kənar alternativ həllində mühüm rol oynayan mediasiya institutu xüsusilə əhəmiyyətlidir. Məlumdur ki, bütün dünyada mütərəqqi institut kimi mediasiya geniş tətbiq olunur.

Ölkəmizdə də mediasiya institutunun yaradılması gündəlikdə olub, bu məqsədlə ötən dövrdə bir sıra addımlar atılıb, o cümlədən beynəlxalq təcrübə öyrənilib və Azərbaycan üçün potensial mediasiya modelinə dair təkliflər hazırlanıb. Həmçinin Avropa Şurası və Avropa İttifaqı ilə bu sahədə birgə layihələrin təşviqinə dair razılığa gəlinib.

Dövlətimizin başçısının ötən ilin dekabrında təsdiq etdiyi "Azərbaycan Respublikasında kiçik və orta sahibkarlıq səviyyəsində istehlak mallarının istehsalına dair Strateji Yol Xəritəsi"ndə cari ildə mediasiya haqqında qanun layihəsinin hazırlanması və Mediasiya Şurasının yaradılması ilə bağlı konkret tapşırıqların verilməsi, şübhəsiz ki, ölkəmizdə bu institutun inkişafına təkan olacaq.

***- Azərbaycan, həmçinin İnsan Hüquqları üzrə Avropa Məhkəməsinin yurisdiksiyasına aiddir. Avropa Məhkəməsinin presedentlərinin tətbiqi üzrə hansı tədbirlər görülür?***

- Qeyd etməliyəm ki, Avropa Məhkəməsinin yurisdiksiyası Azərbaycana 2002-ci ilin aprel ayından şamil olunur. Bununla əlaqədar məhkəmə fəaliyyətinin təkmilləşdirilməsində İnsan Hüquqları üzrə Avropa Məhkəməsinin presedent hüququnun öyrənilməsi və tətbiqinə müstəsna əhəmiyyət verilir. Bu məqsədlə tanınmış mütəxəssislərin iştirakı ilə müxtəlif tədris tədbirləri, konvensiyanın tətbiqi problemləri ilə bağlı Ali Məhkəmədə həftəlik seminarlar, ayrıca təlimlər təşkil olunur. Həmçinin bu sahədə Avropa Şurası ilə birgə Ədliyyə Akademiyası tərəfindən hakimlər, hakimliyə namizədlər və digər hüquqşünaslar üçün iki illik xüsusi layihə həyata keçirilir.

Ardı Səh. 6

# Avropalı ekspertlər: Azərbaycanın məhkəmə sistemində apardığı səmərəli islahatlar bir çox ölkələrə nümunə ola bilər

## *Ədliyyə naziri Fikrət Məmmədovun AZƏRTAC-a müsahibəsi*

Əvvəli Səh. 5

Avropa Məhkəməsinin qərarları, o cümlədən Azərbaycanla bağlı qəbul etdiyi qərarlar hakimlər arasında geniş yayılır. Bu məsələnin əhəmiyyəti nəzərə alınaraq Ali Məhkəmənin Plenumunda müzakirə olunub, bütün məhkəmələrin diqqəti Avropa Məhkəməsinin presedent hüququnun tətbiqinə cəlb edilib və müvafiq tövsiyələr verilib.

Bu sahədə Avropa Məhkəməsinin hakimləri ilə birbaşa təmasların böyük səmərəsi nəzərə alınaraq son illər ərzində Məhkəmənin 20 hakimi, o cümlədən sədrləri ölkəmizə səfərlər edib, təlimlər keçirərək mühazirələr oxuyublar.

Təhlillər göstərir ki, Avropa Məhkəməsinin özündə hədsiz iş yükü vardır. Bu isə üzv dövlətlərin milli məhkəmə sistemlərində qüsurların olması ilə səciyyələndirilir. Bununla əlaqədar Avropa Məhkəməsinin fəaliyyətinin səmərəliliyinin artırılmasına dair ötən dövrdə bir neçə konfrans keçirilib, problemin həlli yolları araşdırılıb, həmçinin üzv dövlətlərdə məhkəmə sistemlərinin təkmilləşdirilməsi ilə bağlı əhatəli sənədlər qəbul olunub. Həmin konfranslarda ölkəmiz də fəal təmsil olunub, Azərbaycanda dövlətimizin başçısının rəhbərliyi ilə məhkəmə sistemində aparılan və məhkəmə hakimiyyətinin müstəqilliyinin təmin olunmasına xidmət edən islahatlar barədə fikir və təcrübə mübadiləsi aparılıb. Təsadüfi deyil ki, bu sahədə sürətli islahatların Azərbaycanda həyata keçirilməsi etiraf olunub və görülən işlərə böyük maraq göstərilib.



Avropa Şurasının bütün üzv dövlətləri üçün yüksək səviyyəli ədliyyə xidmətləri

Konfranslar zamanı qəbul olunmuş bəyannamələrin implementasiyasına xüsusi diqqət yetirilərək bu mühüm sənədlərin mahiyyətini ictimaiyyətə çatdırılması məqsədi ilə bu sənədlər dərhal tərcümə olunaraq nazirliyin və Məhkəmə-Hüquq Şurasının internet saytlarında (www.justice.gov.az, www.jlc.gov.az) yerləşdirilib. Bundan əlavə, qəbuledilmə tələblərinə cavab verməyən şikayətlərin sayının azalmasında mühüm rolu olan Avropa Məhkəməsinin şikayətlərin qəbul olunması kriteriyalarına dair praktiki bələdçi də nazirlikdə Azərbaycan dilinə tərcümə olunub və veb-saytda yerləşdirilib.

Eyni zamanda, hakimlərimizin və digər hüquqşünasların Avropa Məhkəməsində təcrübə keçmələri diqqətdə saxlanılaraq son illər 110 nəfər hakim, prokuror və vəkillər Strasburqda tədris səfərlərində olublar. Yeri gəlmişkən, hazırda hakimliyə namizədlərimiz həmin Məhkəmədə praktiki təlimlərə cəlb olunub. Bundan əlavə, dövlətimizin başçısının təşəbbüsü ilə bir nəfər hakimimiz Strasburq Məhkəməsinə ezam olunub və bu təşəbbüs Avropa Məhkəməsinin sədri tərəfindən yüksək qiymətləndirilərək belə bir təcrübənin davam etdirilməsi barədə razılığa gəlinib.

Avropa Məhkəməsinin qərarlarının icrasına da xüsusi önəm verilir. Qeyd etməliyəm ki, bu qərarlar, ilk növbədə, hüquq sisteminin daha da təkmilləşdirilməsi və inkişafı, insan haqlarının etibarlı təminatı naminə əsaslı mənbə kimi qəbul olunur. Avropa Məhkəməsinin presedent hüququ da məhz buna xidmət edir.

Azərbaycana qarşı Avropa Məhkəməsi tərəfindən çıxarılan qərarların sayı digər ölkələrlə müqayisədə qat-qat azdır. Belə ki, 2016-cı ildə Azərbaycana qarşı cəmi 16 qərar çıxarılıb. Halbuki əhalisinin sayı Azərbaycanla təxminən eyni olan Bolqarıstana qarşı 33, Macarıstana qarşı 40, Yunanıstana qarşı isə 41 qərar çıxarılıb. Ümumiyyətlə, Məhkəmənin fəaliyyətinə nəzər yetirsək görərik ki, çıxarılan bütün qərarların təxminən yarısı yalnız 4 ölkəyə: Rusiya, Ukrayna, Türkiyə və Rumıniyaya qarşı olub.

Avropa Məhkəməsinə Azərbaycandan daxil olan şikayətlərin sayı isə ümumi Avropa göstəricisindən demək olar ki, 2 dəfə azdır. Belə ki, Avropada 10 min əhaliyə orta hesabla 0,64 şikayət düşdüyü halda, bu göstərici Azərbaycan üzrə 0,34 təşkil edir. Ölkəmizlə müqayisədə digər dövlətlərdən, o cümlədən Avropa İttifaqının üzvlərindən olan Macarıstandan 16 dəfə, Rumıniyadan 12 dəfə, habelə Bosniya və Herseqovinadan 8 dəfə çox şikayət daxil olub.

Amma bu bizdə heç də arxayınlıq yaratmır, hüquq sistemimizin inkişafı naminə Avropa Konvensiyasının və məhkəmə presedentlərinin öyrənilməsi və tətbiqi işi əzmlə davam etdirilir.

Möhtərəm Prezidentimizin diqqəti və qayğısı sayəsində bütün sahələrdə olduğu kimi, məhkəmə sistemində də islahatlar uğurla həyata keçirilir, insan hüquqlarının etibarlı müdafiəsi, ədalət mühakiməsinin səmərəliliyinin artırılması, məhkəmə qərarlarının ədalətliliyinin və icrasının təmin olunması ilə məqsədyönlü işlər davam etdirilir, məhkəmə hakimiyyətinin möhkəmləndirilməsi ilə bağlı qanunvericilik daim təkmilləşdirilir, o cümlədən Milli Məclisin son iclasında daha iki yeni qanun qəbul olunub.

-Müsahibəyə görə çox sağ olun, məhkəmə islahatlarının həyata keçirilməsi işində sizə uğurlar arzulayırıq.

# YAP Ağstafa rayon təşkilatının VIII konfransı keçirilib

***Dünən YAP Ağstafa rayon təşkilatının VIII konfransı keçirilib. Konfrans iştirakçıları öncə Heydər Əliyev Mərkəzinə gələrək Ulu Öndərin abidəsinin önünə gül dəstələri düzüblər. Ağstafa rayon Mədəniyyət Mərkəzində öz işinə başlayan konfransı giriş sözü ilə açan YAP Ağstafa rayon təşkilatının sədri Ramiz Tatarov hesabat məruzəsi ilə çıxış edib. O, VII konfransdan ötən dövr ərzində görülən işlərdən və əldə edilən nailiyyətlərdən danışıb: "YAP Ağstafa rayon təşkilatının 5700 nəfər üzvü 67 ərazi ilk partiya təşkilatında birləşib.***

Onların 2940 nəfərini qadınlar, 1897 nəfərini isə gənclər təşkil edir. VII konfransdan keçən müddət ərzində 1182 nəfər YAP sıralarına qəbul edilmişdir". R.Tatarov onu da bildirib ki, Yeni Azərbaycan Partiyası Azərbaycanın çətin, mürəkkəb və təlatümlü tarixi dövründə yaranıb: "Ölkəni bu böhranlı vəziyyətdən güclü lider, mütəşəkkil siyasi qüvvə çıxara bilərdi. Belə bir lider Ulu Öndər Heydər Əliyev, belə bir siyasi qüvvə isə Yeni Azərbaycan Partiyası idi. Ulu Öndər Heydər Əliyevin uzaqgörən siyasəti nəticəsində Yeni Azərbaycan Partiyası Azərbaycanı mürəkkəb vəziyyətdən xilas etdi, ölkəmiz müstəqilliyini itirmək təhlükəsindən qurtuldu və inkişaf yoluna qədəm qoydu. Bu gün Ümummilli Lider Heydər Əliyevin əsasını qoyduğu siyasət uğurla davam etdirilir. Azərbaycan Respublikasının Prezidenti, Yeni Azərbaycan Partiyasının Sədri İlham Əliyevin uğurlu siyasəti ölkəmizin hərtərəfli inkişafını təmin edir".



Sonra YAP Ağstafa rayon təşkilatının nəzarət-təftiş qrupunun sədri Sahib Salıfovun məruzəsi dinlənilib. Ağstafa rayon icra hakimiyyətinin başçısı Məhərrəm Quliyev Ulu Öndər Heydər Əliyevin qurucusu və bu gün ölkə Prezidenti İlham Əliyevin Sədr olduğu Yeni Azərbaycan Partiyasının yaranmasından, keçdiyi, şərəfli, qürurverici tarixindən danışıb. Bildirb ki, yarandıqdan keçən qısa müddətdə hakimiyyətə gələn YAP ümumxalq partiyası olaraq, nəinki Azərbaycanda, ümumiyyətlə, regionun aparıcı, güclü təşkilatı kimi tanınıb və qəbul olunub: "Əminliklə deyə bilərək ki, YAP əldə etdiyi qələbələri bundan sonra da davam etdirəcək. Çünki YAP Ümummilli Lider Heydər Əliyevin partiyasıdır". Konfransda YAP Ağstafa rayon təşkilatı qadınlar şurasının sədri Şəhanə Osmanova, Qıraq Kəsəmən kənd tam orta məktəbinin direktoru Oruc Hüseynov, Tatlı kənd tam orta məktəbinin müəllimi Məmməd Məmmədov, Heydər Əliyev Mərkəzinin müdiri Ləman Cəlilova, Mərkəzi Xəstəxananın həkimi Ramilə Məmmədova, YAP Ağstafa rayon təşkilatının gənclər birliyinin sədr müavini Elvin İmaməliyev və digərləri rayon təşkilatının VIII konfransa qədərki fəaliyyətini qənaətbəxş hesab etdiklərini diqqətə çatdırıblar.

Konfransda çıxış edən, Milli Məclisin deputatları Hadı Rəcəbli, Naqif Həmzəyev, partiyanın Mərkəzi Aparatının məsul işçisi Rafael Gülməmmədov Yeni Azərbaycan Partiyasının yarandığı tarixi şəraitdən, keçdiyi şərəfli yoldan, partiyanın yaradıcısı Ümummilli Lider Heydər Əliyevin xilaskarlıq missiyasından və Yeni Azərbaycan Partiyasının Sədri, ölkə Prezidenti İlham Əliyevin rəhbərliyilə qazanılmış uğurlardan bəhs ediblər.

Konfransın qətnaməsi qəbul edildikdən sonra təşkilati məsələlərə baxılıb. YAP Ağstafa rayon təşkilatının 33 nəfərdən ibrarət şurası, 5 nəfərdən ibarət nəzarət-təftiş qrupu, Ramiz Tatarov yenidən YAP Ağstafa rayon təşkilatının sədri seçilib. Sonda bir qrup Yeni Azərbaycan Partiyasının gənc üzvlərinə partiya vəsiqələri təqdim edilib.

***Rəfiqə***

# Azərbaycan ilə Moldova arasında dostluq əlaqələri möhkəmlənir

*YAP-ın Sədr müavini - İcra katibi Əli Əhmədov Moldova Respublikası Sosialistlər Partiyasının sədri Zinaida Qreçanaya ilə görüşüb*



***Azərbaycan Respublikası Baş nazirinin müavini, YAP-ın Sədr müavini - İcra katibi Əli Əhmədov iyunun 22-də Moldova Respublikası Sosialistlər Partiyasının sədri Zinaida Qreçanayanın başçılıq etdiyi nümayəndə heyətini partiyanın mənzil-qərargahında qəbul edib.***

Görüşdə Azərbaycan və Moldova arasında ikitərəfli əməkdaşlıq münasibətlərinin mövcud durumu və inkişaf perspektivləri barədə ətraflı fikir mübadiləsi aparılıb. YAP-ın Sədr müavini Əli Əhmədov Azərbaycan ilə Moldova arasındakı dostluq əlaqələrinin əhəmiyyətindən bəhs edərək bildirib ki, ortaq iqtisadi maraqlar, hər iki ölkənin GUAM-a üzvlüyü və digər bu kimi amillər əməkdaşlığın inkişafına zəmin yaradır. YAP -ın Sədr müavini, həmçinin, Yeni Azərbaycan Partiyası ilə Moldova Respublikası Sosialistlər Partiyası arasındakı əlaqələrin də inkişafının böyük önəm daşıdığını qeyd edərək mövcud səfərin qarşılıqlı əməkdaşlığa təkan verəcəyini vurğulayıb.

Daha sonra YAP-ın Sədr müavini Əli Əhmədov partiya haqqında məlumat verərək 700 min nəfərə yaxın üzvü olan YAP-ın əhali arasında böyük nüfuza malik olduğunu, Azərbaycan xalqının 24 ildir ki, bu partiyanı dəstəklədiyini bildirib. YAP -ın Sədr müavini qeyd edib ki, partiyanın dəstək olduğu daxili və xarici siyasi kurs ölkəyə iqtisadi dividendlər gətirib, əhalinin rifah halını xeyli yaxşılaşdırıb. Bu illər ərzində Azərbaycanın siması əhəmiyyətli dərəcədə dəyişib, ölkədə beynəlxalq əhəmiyyətli tədbirlər, yarışlar keçirilir. İki gündən sonra baş tutacaq Formula-1 Qran Prisi buna əyani sübutdur. Ölkədə sabitlik bərpa olunub, bütün sahələr inkişaf edir, əhalinin sayı artaraq 10 milyon nəfərə çatıb.

YAP-ın Sədr müavini əlavə edib ki, ölkələrin, xalqların bir-birinə yaxınlaşması üçün partiyalararası əlaqələr də mühüm önəm kəsb edir. Bu baxımdan, geniş beynəlxalq əlaqələrə malik olan Yeni Azərbaycan Partiyası Avropa, Asiya, MDB məkanı, və Cənubi Amerikadakı bir sıra partiyalarla fəal əməkdaşlıq qurub.

Öz növbəsində Moldova Respublikası Sosialistlər Partiyasının sədri Zinaida Qreçanaya Moldova Prezidenti İqor Dodonun rəhbərlik etdiyi nümayyəndə heyəti tərkibində ölkəmizdə olmaqdan məmnunluğunu ifadə edib. O qeyd edib ki, Bakıda olduğu müddətdə vahid Azərbaycan xalqı ideyasının əyani şahidi olub və Moldovanın Azərbaycandan öyrənə biləcəyi müsbət örnəklər çoxdur. Zinaida Qreçanaya da partiyalararası əlaqələrə böyük əhəmiyyət verdiklərini bildirərək Yeni Azərbaycan Partiyası ilə qarşılıqlı səfərlər və təmasların müntəzəm xarakter almasında maraqlı olduqlarını söyləyib.

Mariya Qreçanaya həmçinin, Moldovada çoxlu sayda azərbaycanlıların yaşadığını qeyd edərək iki ölkə arasında bines və investisiyaların yatırımı sahəsində əməkdaşlığın genişləndirilməsinə əlverişli imkanların olduğunu da vurğulayıb.

YAP-ın İcra katibi Əli Əhmədov qarşılıqlı münasibətlərin müxtəlif sahələrdə inkişaf etdirilməsinin vacibliyini qeyd edib.

Görüşdə habelə, YAP Sədrinin müavini Əli Əhmədov Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi barədə də məlumat verərək, Azərbaycan hökumətinin bir milyondan artıq qaçqın və məcburi köçkün soydaşımızın yaşayış şəraitinin yaxşılaşdırılması istiqamətində gördüyü işlərdən bəhs edib. O, həmçinin, bənzər konfliktlərlə üzləşən hər iki ölkənin ərazi bütövlüyü prinsipinin müdafiəsi istiqamətində bir-birinə dəstəyinin vacibliyini qeyd edib.

Ümumilikdə qeyd olunub ki, üst-üstə düşən maraqlar ölkələrimiz arasında münasibətlərin bundan sonra da inkişafına əhəmiyyətli töhfə verəcəkdir.

Görüşdə, həmçinin, YAP-ın Beynəlxalq əlaqələr şöbəsinin müdiri, Milli Məclisin deputatı Sevinc Fətəliyeva, Azərbaycan Respublikasının Moldovadakı fövqəladə və səlahiyyətli səfiri Qüdsi Osmanov, eləcə də Moldova prezidenti aparatı rəhbərinin müavini Nikolay Posturusu və Moldova Respublikası prezidentinin şəxsi köməkçisi və mətbuat xidmətinin rəhbəri İon Çebanu da iştirak ediblər.

## Ermənistana məxsus PUA məhv edilib



Azərbaycan Silahlı Qüvvələrinin bölmələri Ermənistana məxsus pilotsuz uçuş aparatını (PUA) məhv edib. Müdafiə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, iyunun 21-də axşam saatlarında cəbhənin Tərtər istiqamətində Silahlı Qüvvələrimizin mövqeləri üzərində kəşfiyyat uçuşları həyata keçirməyə cəhd göstərən Ermənistan silahlı qüvvələrinə məxsus pilotsuz uçuş aparatı (PUA) məhv edilib.






# "Ermənistanın işğalçılıq siyasəti: Regionda təhlükəsizlik və humanitar fəlakət" mövzusunda ictimai forum keçirilib

***İyunun 22-də Beynəlxalq Mətbuat Mərkəzində Beynəlxalq Münasibətlərin Araşdırılması Mərkəzi (BMAM) və Azərbaycan Respublikasının Prezidenti yanında Qeyri-Hökumət Təşkilatlarına (QHT) Dövlət Dəstəyi Şurasının təşkilatçılığı ilə "Ermənistanın işğalçılıq siyasətinin yaratdığı problemlər və regional təhlükəsizliyə təsiri" layihəsi çərçivəsində "Ermənistanın işğalçılıq siyasəti: Regionda təhlükəsizlik və humanitar fəlakət" mövzusunda ictimai forum keçirilib.***

AZƏRTAC xəbər verir ki, Prezident yanında QHT-lərə Dövlət Dəstəyi Şurasının üzvü, BMAM-ın sədri Rufiz Qonaqov forumda çıxış edərək Ermənistanın işğalçılıq siyasətinin yaratdığı problemlərin və regional təhlükəsizliyə təsirinin illərdir davam etdiyini söyləyib. "Azərbaycanın sülh təşəbbüslərinə, dinc qonşuluq prinsipinə hörmət etməsinə baxmayaraq, Ermənistandakı cinayətkar rejim təcavüzkar siyasətindən, işğal planından əl çəkmir. Ermənistanın bu siyasəti illərdir davam edir və nəinki Azərbaycan, eləcə də bütün region üçün ciddi təhlükəyə çevrilib. Prezident İlham Əliyev dəfələrlə Ermənistana, onun rəhbərliyinə xəbərdarlıq edib ki, Azərbaycan bu işğalla barışmayacaq və torpaqlarımız gec-tez azad ediləcək. Artıq Ermənistan dərk etməlidir ki, bu çağırışa əməl etməklə öz təhlükəsizliyini təmin etmiş olacaq", - deyə R.Qonaqov qeyd edib.

Prezident Administrasiyanın məsul əməkdaşı, Prezident yanında QHT-lərə Dövlət Dəstəyi Şurasının sədr müavini Vüsal Quliyev bildirib ki, Ermənistanın təcavüzkar siyasəti sülhə və əmin-amanlığa hər zaman təhlükə olub və bu təhlükə indi də davam edir. Lakin Azərbaycan dövlətinin qüdrəti, Prezident İlham Əliyevin apardığı siyasət bunu deməyə əsas verir ki, işğal olunmuş torpaqlarımız tezliklə azad ediləcək. Ermənistanda yaxşı bilirlər ki, Azərbaycan heç zaman bu işğalla barışmayacaq və bir qarış torpağımız belə düşmən işğalında qalmayacaq. Sonra forumda məruzələr dinlənilib.

Milli Məclisin deputatı, professor Elman Nəsirov "Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli prosesi yeni mərhələdə", Xarici İşlər Nazirliyinin mətbuat katibi Hikmət Hacıyev "Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli prosesi", Qarabağ Araşdırmalar Mərkəzinin rəhbəri, professor Elçin Əhmədov "Ermənistanın Azərbaycana qarşı ərazi iddiaları və hərbi təcavüzünün nəticələri", "Yeni Azərbaycan" qəzetinin baş redaktoru, Milli Məclisin deputatı, professor Hikmət Məmmədov "Ermənistanın işğalçılıq siyasəti, Cənubi Qafqazda təhlükəsizliyi təhdid edən əsas amil kimi", "Cümhuriyyət" qəzetinin baş redaktoru Rəfail Becanov "Ermənistanın işğalçılıq siyasətinin ifşasında media və sosial şəbəkələrin fəaliyyəti", "Milli Məclis" jurnalının baş redaktoru Ülviyyə Abdullayeva "Qafqazın başı üzərində nüvə kabusu: "Metsamor" atom elektrik stansiyası", filologiya elmləri doktoru Rövşən Məmmədov "Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi fonunda transmilli informasiya siyasəti", "Gündəlik Teleqraf" holdinqin rəhbəri Aynur Camalqızı "Ermənistanın işğalçılıq siyasəti: İnformasiya təhlükəsizliyinin təmin olunmasında medianın rolu", professor Fikrət Yusifov "Ermənistanın işğalçılıq siyasəti və humanitar fəlakət" mövzularında məruzələrlə çıxış ediblər. Forum ayrı-ayrı panellər üzrə müzakirələrlə davam etdirilib. Müzakirələrdə Azərbaycanın sülh təşəbbüslərinə baxmayaraq, Ermənistanın işğalçılıq siyasətindən əl çəkməməsi xüsusi vurğulanıb. Bildirilib ki, dünya ölkələri Ermənistanı təcavüzkar ölkə kimi tanıyır və işğalçıdan bu məkrli siyasətindən əl çəkməsi tələb olunur. İllər öncə açıq şəkildə deyilməyən işğal faktı indi birbaşa deyilir. Ona görə, bu proses yeni bir mərhələyə qədəm qoyub. Ölkəmiz diplomatik sahədə də Ermənistandan üstün mövqeyə malikdir. Ermənistan bilməlidir ki, sərhədlərin dəyişdirilməməsi prinsipi ali prinsipdir və işğalçı bütün mümkün vasitələrlə Azərbaycan torpaqlarından qovulacaq. Vurğulanıb ki, Ermənistanın işğalçılıq siyasəti təkcə Azərbaycan üçün deyil, həm də regionumuz üçün təhlükə olaraq qalır. Cənubi Qafqaz regionu böyük iqtisadi layihələri əhatə edən regiondur. Lakin Ermənistanın hərbi təcavüzü bu layihələrə də təhlükə yaradır. Ermənistan faktiki olaraq regionda sülhü pozan, xalqlar arasında qarşıdurma yaradan bir subyektə çevrilib.

BMT, ATƏT, Avropa İttifaqı, Avropa Şurası, Qoşulmama Hərəkatı, İslam Əməkdaşlıq Təşkilatı və digər nüfuzlu qurumlar, bir çox ölkələr Ermənistanın işğalçılıq siyasətini pisləyən və Azərbaycanın zəbt olunmuş torpaqlarını geri qaytarmağı tələb edən qərar və qətnamələr qəbul edib. Müzakirələr zamanı "Metsamor" atom elektrik stansiyasının region üçün böyük təhlükə mənbəyi olması, bu stansiyanın bağlanması üçün həyata keçirilən kampaniya, Ermənistanın regionda humanitar fəlakətə aparan addımları, informasiya müharibəsi sahəsində görülən işlər ilə bağlı çıxışlar olub.

# Azərbaycanın qüdrətli ordusu və qətiyyətli mövqeyi var

## Milli Məclisin Müdafiə, təhlükəsizlik və korrupsiya ilə mübarizə komitəsinin üzvü Bəxtiyar Sadıqovun yap.org.az-a müsahibəsi

***- Bəxtiyar müəllim, Azərbaycan Ordusunun yaradılmasından 99 il ötür. Müasir Azərbaycanda isə ordu quruculuğuna 1991-ci ildən başlansa da, vahid komandanlığa əsaslanan nizami ordunu Heydər Əliyev yaratdı. Ulu öndərin bu sahədəki tarixi fəaliyyəti barədə nə deyə bilərsiniz?***

- Azərbaycan xalqının məşhur bir məsəli var: ordum varsa, yurdum var! Biz bu deyimin nə qədər real olduğunu öz tarixi təcrübəmizdə gördmüşük. Sovet imperiyasının süqutundan sonra Azərbaycan müstəqillik yolunu tutdu. Lakin ölkəmizi daim əsarət altında saxlamaq istəyənlər, onun milli sərvətlərindən bəhrələnmək arzusunda olanlar Azərbaycanın müstəqilliyi ilə barışmaq istəmirdilər. Buna görə hələ ötən əsrin 80-ci illərinin sonlarında tarixdə "sınaqdan çıxmış" köhnə metoda əl atıldı - ermənilərin hər zaman alət millət olması nəzərə alınaraq süni şəkildə "Qarabağ problemi" yaradıldı, ərazilərimizin ələ keçirilməsi üçün məkrli planlar işə salındı. Sovet imperiyasının rəhbərliyinin, Moskvanın məqsədli və ikibaşlı oyunları, müxtəlif addımları nəticəsində get-gedə "iqtisadi narazılıq" hərbi münaqişəyə çevrildi.

İlk dövrlərdə görürdük ki, Ermənistan tərəfi müxtəlif üsullarla silahlandırılır. Guya onlar hərbi hissələrə "hücum edib" silahlar ələ keçirirdilər. Amma bunların hamısı oyun idi. Hadisələrin sonrakı inkişafı da bunu təsdiqlədi. Digər tərəfdən, SSRİ-nin "Vremya" proqramı sistemli şəkildə Ermənistan ordusunun yaranması haqqında reportajlar verir, erməni hərbçilərinin fikirlərini tirajlayırdı. Hətta əsgərlərin hərbi biletlərini ekranda göstərirdilər. Gizlədilmirdi ki, Ermənistan tərəfi sistemli şəkildə silahlanır, ordu qurur. Bunun fonunda isə o dövrki Azərbaycan rəhbrliyində qəribə arxayınçılıq, vəzifəni itirmək qorxusu var idi. O vaxt Azərbaycana rəhbəlik edənlər, xüsusən də Mütəllibov iqtidarı Azərbaycanın müstəqil dövlət olacağına inanmaq istəmirdilər. Ona görə də bu proseslərə laqeyd yanaşır, əks tədbirlər görmürdülər. Əksinə, dinc azərbaycanlı əhalinin ov tüfənglərini belə əllərindən alırdılar. Bununla da həmin vaxtdan "tarazsızlaşdırma siyasəti"nə başlanıldı. Yəni hərbi cəhətdən Ermənistana kömək edilərək onları daim Azərbaycandan yüksəkdə saxlamağa çalışdılar. Təsəvvür edin ki, ermənilər odlu silahlarla silahlanırdı, avtomatları, topları vardı. Azərbaycan tərəfi isə əliyalın qalmışdı.



İlkin vaxtlarda kəndlərimiz qarət olunmağa başlandı. Azərbaycanlıları girov götürür, pul müqabilində buraxırdılar. Bütün bunlara isə o boyda güclü strukturları olan SSRİ-nin rəhbərliyi "növbətçi açıqlamalar" verməklə kifayətlənirdi. Azərbaycan əhalisi çaş-baş qalmışdı ki, bu necə olan işdir, bir dövlətin tərkibində yaşayırıq, amma bizim əl qolumuzu bağlayıblar, ermənilər isə istədiklərini edirlər. Nə səsimizi eşidən var, nə də bizə silah verən! Dövət rəhbərlərimiz isə bizi sakitləşdirmək yolunu tutmaqla Ermənistandakı soydaşlarımızın zorla, fiziki təziqlərlə, hətta qəsdlərlə dədə-baba torpaqlarından çıxarılaraq Azərbaycana qovulmasına şərait yaradırdılar. Qarabağda yaşayan azərbaycanlılar isə məcbur olurdular ki, özləri öz kəndlərini, ev-eşiklərini, torpaqlarını özləri qorusunlar. Gecə səhərə qədər kəndlərdə tonqal qalayırdılar. Çomaqla, baltayla, dəhrəylə keşik çəkirdilər. Əliyalın insanların silahlı "saqqallılar" qarşısında dayanması uzun müddət çəkə bilməzdi.

Bir qədər keçəndən sonra Azərbaycanda ehtiyatla da olsa, (insanların təzyiqi qarşısında) xüsusi təyinatlı milis dəstələri yaradıldı. Bu zaman hər 2-3 nəfərə bir tapança verirdilər. Bunun özü də əslində simvolik idi. Hər kənddən bir neçə nəfər seçib bu dəstəyə üzv edirdilər. Lakin bu zaman artıq ermənilər pulemyotlar, zirehli texnika ilə silahlanmışdılar. Xalq gördü ki, özü öz başına çarə qılmasa, dövlət heç nə etməyəcək! Beləliklə, yavaş-yavaş insanlar ordan-burdan müxtəlif ov tüfəngləri və digər silahlar, məktəblərdən təlim avtomatları əldə etməyə başladılar. Beləliklə, ilk könüllü özünümüdafiə batalyonları yaradıldı. Yəni artıq ermənilərin silahlandırılması bir pillə qalxandan sonra biz də silahlandıq.

Mütəllibovun "ov tüfənglərini yığmaq" addımından sonra AXC-Müsavat cütlüyünün Azərbaycan ordusunu "yaratmaq" addımları da özünəməxsus və qəribə idi. Onlar səriştəsizliklərini bu sahədə də göstərdilər. Təsadüfi deyil ki, onların təyin etdiyi ilk müdafiə naziri vətən xaini çıxdı. Orduda xidmət edən əsgərlər kimlər idi? Küçə ilə gedənlər, dayanacaqda duranlar. Reydlər zamanı əllərinə kim keçdi təlimsiz-filansız cəbhəyə aparırdılar. İnsanları həbsxanalardan buraxırdılar ki, gedin vətəni müdafiə edin. Bu adamların da bir qismi cəbhəyə gedib silah əldə edəndən sonra Bakıya qayıtdılar. Ondan sonra isə cinayətkarlığın sayı artmağa başladı. Əslində elə ordu quruculuğunun nəticəsi belə olmalı idi!

Xalqın təkidli tələbi ilə yenidən hakimiyyətə qayıdan ulu öndər Heydər Əliyev bu sahədə də çox təcrübəli və səriştəli idi. O, uzun müddət dövlət təhlükəsizliyi orqanlarında işləmişdi. SSRİ-nin rəhbərlərindən biri olmuşdu. Həm dünyada gedən siyasi proseslərdən, həm də hərbi sahədən kifayət qədər xəbəri vardı. Ulu öndər hələ Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin birinci katibi olan vaxtdan ölkəmizdə ordu quruculuğuna başlamışdı. Hansı formada? Ordu ilk növbədə milli zabit kadrlarının olması deməkdir və Heydər Əliyev öz nüfuzu və hörməti ilə mərkəzə müəyyən təsirlər edərək Cəmşid Naxçıvanski adına hərbi təmayüllü internat məktəbini yaratmışdı. Bu, o dövr üçün çox mühüm addım idi.

Həmin vaxt Azərbaycanda bir neçə ali hərbi məktəb olsa da, kursantların çoxu digər millətlərin nümayəndələri idilər. Həmin məktəblərdə azərbaycanlılar demək olar ki, yox idi. Ulu öndər öz nüfuzundan istifadə edərək kvota müəyyənləşdirdi ki, məktəblər Azərbaycanda yerləşdiyi üçün qəbul olunanların müəyyən faizi azərbaycanlılar olmalıdır. Bu da o dövr üçün çox mühüm hadisə idi!

Beləliklə, o dövrdə daha çox inşaat batalyonlarında xidmət edən, hərbi hissələrdə qeyri-hərbi sahələrə yönəldilən Azərbaycan gəncləri hərbi təhsil almağa başladılar. Müstəqillik dövründə Azərbaycan Ordusu yarananda zabit heyətinin özəyini həmin insanlar təşkil etdi. SSRİ-nin başqa yerlərində xidmətdə olanlarlar öz vətənlərinə qayıtmaq arzularını bildirdilər. Çünki gördülər ki, vətən təhlükədədir və geri döndülər. Bir məqamı da vurğulayım ki, ulu öndərdən əvvəlki iqtidarların dövründə ölkəyə qayıdan hərbiçilərin heç də hamısını ordu sıralarına götürüb təcrübələrindən, hərbi bacarıqlarından səmərəli istifadə etmirdilər.

Həmin dövrdə gec də olsa Müdafiə Nazirliyinin tərkibində müxtəlif batalyonlar yaradılmışdı. Düzdür, o batalyonların hamısı vətənin müdafiəsinə xidmət etmirdi. Bir çoxu müxtəlif siyasi partiyaların maraqlarını güdürdü. Həmin silahlı dəstələr ulu öndər tərəfindən ləğv olundu və əvəzində vahid komandanlığa tabe olan nizami Azərbaycan Ordusu yaradıldı. Bu, bütün ictimaiyyətdə böyük ruh yüksəkliyi doğurdu! Tezliklə Horadiz əməliyyatı keçirildi, indiki Cocuq Mərcanlı kəndi də daxil olmaqla 22 yaşayış məntəqəsi işğaldan azad edildi.

Bu əməliyyatdan sonra ermənilər atəşkəs müqaviləsini imzalamağa məcbur oldular. Çünki gördülər ki, yeni yaradılmış bu orduyla Azərbaycan onlara üstün gəlir. Ona görə məcburiyyət qarşısında qalaraq atəşkəsə də razı oldular. Bundan sonra isə Heydər Əliyev ordu quruculuğu prosesini tam miqyasda həyata keçirməyə başladı.

O illər çox çətin və ağır dövr idi. Çünki dövlət büdcəsi boş idi, 1 milyondan çox qaçqın və məcburi köçkün çöllərdə qalmışdı. Dövlət onlara da qayğı göstərməli idi. Amma necə? İqtisadiyyat tənəzzül etmiş, güclü inflyasiya, anarxiya və xaos davam etməkdə idi. Amma Heydər Əliyev sutkanın 18 saatını işləməyi və problemlərin həllinə nail olmağı bacaran dövlət rəhbərlərindən idi. Ona görə də bütün bu istiqamətlərdə çox qısa müddətdə böyük işlər görüldü. Atəşkəs elan olunandan sonra qeyri-qanuni silahlı dəstələr ləğv edildi, əhalidə olan külli miqdarda silah-sursat toplanıldı. Ölkədə möhkəm və dönməz sabitlik yarandı. Nəhayət, iqtisadi islahatlara start verildi, bazar iqtisadiyyatı münasibətlərinə keçid üçün addımlar atıldı, özəlləşdirmə proqramları həyata keçirildi. Ən mühüm tarixi hadisə olan "Əsrin Müqaviləsi" neft kontraktının imzalanması oldu! Beləliklə, həm də dünyanın aparıcı dövlətlərinin maraqları müstəqil Azərbaycanın maraqları ilə uzlaşdırıldı.

Bütün bu proseslərlə paralel ordu quruculuğu durmadan davam etdirildi. Hətta bizim yadımıza gəlir ki, o dövrdə əsgərliyə gedənlər bir neçə ay mülki formada xidmət edirdilər. Onları hərbi geyimlə təmin etmək imkanları aşağı idi. Bunlara baxmayaraq qısa müddətdə Azərbaycan Ordusu lazımi səviyyədə formalaşdırıldı.

***- Ali Baş Komandan, Prezident İlham Əliyevin bəyan etdiyi kimi ordu quruculuğu prioritetdir. Ölkə rəhbərinin həyata keçirdiyi tədbirlər ordumuzda hansı keyfiyyət dəyişikliklərinə səbəb olub?***

- Ulu öndərin müəllifi olduğu neft strategiyası 2005-ci ildən Prezident İlham Əliyevin rəhbərliyi ilə uğurla reallaşdı. Bakı-Tbilisi-Ceyhan neft kəmərinin inşası başa çatdı və Azərbaycan nefti Avropaya ixrac olunmağa başladı. Bundan sonra Azərbaycanın iqtisadi imkanları daha da artdı. Məhz bundan səmərəli istifadə edərək ölkəmzin dinamik və davamlı inkişafına nail olan Prezident İlham Əliyevin diqqət yetirdiyi əsas məsələlərdən biri də ordudur. 2007-ci ildən etibarən Azərbaycanın hərbi büdcəsi Ermənistanın dövlət büdcəsini ötdü. Ordumuzun arsenalına ən yeni silahlar daxil edildi. Hərbi hissələr ən müasir texnologiyaya əsaslanan silahlarla təchiz olunmağa başladı.

Beləliklə, Ali Baş Komandan İlham Əliyevin həyata keçirdiyi düşünülmüş siyasət nəticəsində bu gün Azərbaycan Cənubi Qafqazın ən güclü və modern ordusuna sahibdir. Ordunun digər vacib şərtlərindən biri onun idarə olunmasıdır. Texnika da var, əsgərlər də! Amma bunlar komandirlərin hazırladığı planlar, keçirilən təlimlər zamanı toplanan təcrübə əsasında idarə olunmalıdır. Artıq bizim ordunun mükəmməl idarə olunması, döyüşlər zamanı müxtəlif qoşun növləri arasında əlaqələrin koordinasiya edilməsi üçün müasir, intellektual komanda-idarəetmə mərkəzimiz var.

Hesab edirəm ki, bizim ordu quruculuğumuz tam başa çatsa da, ordu təchizatı başa çatmayıb. Daim sistemli şəkildə yeni silahlar alınır. Artıq müasir texnologiyalara söykənən Müdafiə Sənayesi Nazirliyi yaradılıb. Özümüz

# Azərbaycanın qüdrətli ordusu və qətiyyətli mövqeyi var

## Milli Məclisin Müdafiə, təhlükəsizlik və korrupsiya ilə mübarizə komitəsinin üzvü Bəxtiyar Sadıqovun yap.org.az-a müsahibəsi

üçün minə qədər adda müxtəlif təyinatlı silah-sursatlar istehsal edirik. Azərbaycanın snayper silahları, avtomatları, tapançaları var, özünün zirehli texnikasını istehsal edir. Bunlar çox mühüm məsələlərdir. Hətta Azərbaycan silah ixracına başlayıb. Bu o deməkdir ki, sabah müharibə başlasa, bizim heç bir dövlətdən asılılığımız olmayacaq. Müharibənin hər anı puldur, hər dəqiqədə yüzlərlə silah-sursat işlədilir. Bu baxımdan, hesab edirəm ki, ölkəmiz ciddi uğura nail olub.

Nəhayət, ordunun ən mühüm şərtlərindən biri Ali Baş Komandanın özünün vətənpərvər olmağı, özünün orduya yaxından bağlanmağı, özünün hərbi işi dərindən bilməyi və daim ordunun problemləri ilə yaşayıb, onları uğurla həll etməyi bacarmasıdır. Bu sahədə də Azərbaycan ordusunun bəxti gətirib. Cənab İlham Əliyev il ərzində sistemli şəkildə təmas xəttində, səngərlərdə olur, əsgərlərlə görüşür, onları təltif edir, durumları ilə maraqlanır, onlarla birgə əsgər yeməyi yeyir. Bax, onun bu şəkildə ordunun içərisində olması həm orduda böyük ruh yüksəkliyi doğurur, həm də onun daxilində olan məsələləri öyrənib problemləri dərhal həll olunmasına şərait yaradır. Bütövlükdə, ordu-rəhbər birliyi, ordu-xalq birliyi özünün yüksək səviyyədə vəhdətini tapmışdır! Bu vəhdətin təsdiqini biz ötən il Lələtəpə uğurnda döyüşlərdə gördük.

***- Ötən ilin aprelində cəbhə xəttində qazanılan zəfər Azərbaycan Ordusunun gücü barədə deyilənlərin təsdiqi oldu. Bu barədə fikirlərinizi bilmək maraqlıdır.***

- Həmin vaxt həyata keçirilən hərbi əməliyyatar Azərbaycan Ordusunun nəyə qadir olduğunu göstərdi. Gördük ki, bu ordu çox qısa müddətdə qarşısına qoyulan vəzifələri yüksək səviyyədə həyata keçirmək iqtidarındadır. Ermənilər uzun müddət kimlərinsə sayəsində "keçilməz sədd", "aşılmaz maneələr", "dəf edilməz səngərlər" yaratmışdı. Amma Lələtəpə əməliyyatı göstərdi ki, bütün bunlar mifdir, Azərbaycan əsgəri üçün heçnədir! Həm də o əməliyyatlarda bizim malik olduğumuz silah-sursatın cüzi qismi işlədildi. Çünki əvvəlcədən hazırlanmış hücum əməliyyatı deyildi ki, bütün texnikanı oraya yığaq. Biz sadəcə təxribata cavab verdik. Uğurlu əməliyyat nəticəsində həm də Azərbaycan xalqının orduya olan məhəbbəti, inamı qatqat artdı! Təmas xəttinə yaxın kəndlərin əhalisi ordumuza inanaraq orada yaşayır. Lələtəpə əməliyyatı zamanı onlar inamlarını əməli işdə sınadılar, evlərini tərk etmədilər və əmin oldular ki, Azərbaycan Ordusuna güvənmək mümkündür!

O zaman ermənilər gördə ki orduya gücləri çatmır, murdar xislətlərinə sadiq qalaraq dinc əhalini hədəf seçdilər. Yaşayış evlərini gülləyə, mərmiyə tutdular. Bu zaman sakinlər o qədər mütəşəkkil hərəkət etdilər ki, çoxsaylı evlər tikililər dağıdılsa da, əhali arasında böyük tələfat olmadı. Deməli, cəbhə bölgəsində yaşayan Azərbaycan vətəndaşları da hərbi əməliyyatlar zamanı necə hərəkət etməyi öyrənib. Əhali arasında panika, qorxu, qaçış filan yaranmadı. Bunun özü də müharibə zamanı çox vacib amillərdəndir.

Aprel döyüşləri başlayanda yüzlərlə Azərbaycan gənci hərbi xidmətə çağırış vərəqəsini gözləmədən səfərbərlik orqanlarına müraciət etdilər ki, biz də döyüşmək istəyirik. Əməliyyat gedən əraziyə bu gənclərin buraxmamaq üçün bir sədd yaratmışdılar. Ermənistan tərəfdə isə Azərbaycan əsgərindən, Azərbaycan silahından qorxub qaçan erməni əsgərlərini saxlamaq üçün sədd çəkmişdilər, hətta onları geriyə qaytarmaq üçün güllə ilə vururdular da! Bərkə düşən kimi erməni hərbçiləri qaçmağa başlayırlar. Çünki bilirlər ki, Qarabağ onların deyil və müvəqqəti bu ərazidədirlər!

***- Bəxtiyar müəllim, vətənpərvərlik mövzusuna toxundunuz. Ordunun gücü həm də şəxsi heyətin yüksək mənəvi durumu ilə ölçülür. Azərbaycan əsgərinin vətənpərvərliyi barədə başqa nə deyə bilərsiniz?***

- Ordu mürəkkəb mexanizmdir. Ordu quruculuğunun mərkəzində, özəyində insan amili dayanır. Yəni ilk olaraq, insan vətənini sevməli, fiziki cəhətdən güclü, sağlam, mənən zəngin, döyüşkən olmalı, qorxmadan düşmən üzərinə getməyi bacarmalıdır və nəhayət, hərbi vərdişlərə yiyələnməklə silahlardan məharətlə istifadə etməlidir. Əgər Orduda vətənpərvər, sağlam, güclü, torpağını sevən insanlar olmasa, müasir texnologiyaya əsaslanan silahlardan, texnikadan da səmərəli istifadə etmək çətindir.

Azərbaycan Ordusu isə bu sahədə əsl nümunə ortaya qoyur. Bizim Mübariz İbrahimov, Fərid Əhmədov, Çingiz Qurbanov, Raquf Orucov kimi qəhrəmanlarımız var. Onlar Azərbaycan əsgərinin mərdlik, cəsarət, qorxmazlıq, igidlik simvoluna çevriliblər. Bunun səbəblərindən biri vətən sevgisidirsə, digər mühüm səbəb Ali Baş Komandanın ortaya qoyduğu vətənpərvərlik örnəyidir. Azərbaycan Prezidenti davamlı şəkildə əsgər kazarmalarında olur, mövcud şəraitlə maraqlanır. Xidmətini başa çatdıran zabitlərə pulsuz evlər verilir. Ermənistanda isə gördüyümüz odur ki, erməni anaları öldürülmüş uşaqlarının şəkilləri əllərində öz rəhbərlərindən haqq-hesab sorurlar. İnanıram ki, bu cür hallar getdikcə daha da kütləviləşəcək. 9-cu sinifdən sonra erməni valideynlər uşaqlarını orta məktəbdən çıxarıb müxtəlif üsullarla - rüşvət verməklə xaricə qaçırırlar. Ermənistanda hərbi çağırış zamanı hərbi hissələri komplektləşdirmək mümkün olmur!

Qürurverici məsələlərdən biri odur ki, bu gün hərbi təhsil alanlar arasında xeyli sayda məcburi köçkün övladları var. Onlar hərbi peşəyə yiyələnməklə bəyan edirlər ki, müharibə başlayanda öndə olacaqlar, çünki öz torpaqlarını özləri azad etmək istəyirlər! Bu, orduya məhəbbətdir, dövlətə inamdır!

Bir məqamı da vurğulamaq istəyirəm ki, Azərbaycan gənci çağırış vərəqəsi gəlmədən könüllü olaraq orduya getmək istəyir. Erməni tərəfi isə təklif edir ki, kim Qarabağda üç il xidmət etsə, ona 10 min dollar veriləcək. Vətən sevgisinin nəticəsidir ki, Azərbaycan gənci torpaq uğrunda canından keçir, şəhid olur. Ermənistan gəncini isə orduya gətirmək üçün ona rüşvət təklif edirlər. Bu, üstünlükdür, dönüşdür, dəyişikliklərdir. Bu dəyişikliyin nümunəsini bir neçə gün əvvəl də gördük. İyunun 14-də Prezident İlham Əliyev Çocuq Mərcanlı kəndinin açılışında iştirak elədi. İlkin olaraq 50 mənzil tikilib. Amma 250 ailə kəndə qayıtmaq arzusundadır. Görün insanlarda nə qədər dövlətə güvən, torpağa sevgi var ki, hər kəs kəndə qayıtmaq, orada yaşamaq istəyir. Bu, Orduya və Ali Baş Komandana olan inam və etibardır.

***- Hesab edirsinizmi ki, mütəmadi olaraq keçirilən hərbi təlimlər Azərbaycan Ordusunun torpaqlarımızı azad etmək üçün keçirəcəyi hərbi əməliyyatlara hazırlıqdır?***

- Ordunun arxalandığı bir neçə məqam var. Birincisi, onun tərkibi daim təzələnməlidir, köhnə əsgər zabit heyətini yeniləri əvəz etməlidir və say tərkibi çoxalmalıdır. Bu cəhətdən bizdə heç bir problem yoxdur! Azərbaycan ordusunda fərarilik daha yoxdur! Fərarilik Emənistana xas olan şeydir. İkincisi, qeyd etdiyim kimi silah-sursat təminatı sahəsində də vəziyyət ürəkaçandır. Çünki həm xaricdən silahsursat və texnika alırıq, həm də özümüz istehsal edirik. Digər mühüm məsələ isə əvvəldə toxunduğum kimi ordunun idarə olunmasıdır. Sistemli şəkildə Azərbaycanda döyüş vəziyyətinə uyğun, atışlı hərbi təlimlərin keçirilməsi ordunun döyüş qabiliyyətinin və təcrübəsinin artırılmasında, qoşun növlərinin koordinasiyalı idarə olunmasında mühüm əhəmiyyət kəsb edir.

Ermənilər hərdən Ağdamın Uzundərə adlanan yerində bir neçə sınıq-salxaq texnika ilə atəş açıb səs-küy çıxarırlar ki, guya hərbi təlim keçirirlər. Amma Azərbaycanın keçirdiyi hərbi təlimlərə baxın, görün nə qədər zirehli texnika, canlı qüvvə, artileriya qurğusu, döyüş aviasiyası atəş meydanına çıxır. Təlimlərə uzaqvuran toplar, vertolyotlar, təyyarələr cəlb edilir. Azərbaycan artıq Türkiyə ordusuyla birgə təlimlər keçirir. Bunlar sıradan hadisələr deyil! Özü də real atışlı təlimlər ordunun hərbi əməliyyatlara hazırlığı üçün çox vacib şərtdir. Əsgərlərimiz hər təlimdən sonra müharibə şəraitinə uyğun təcrübə toplayırlar. Bundan başqa, texnikanı necə idarə etmək lazım olduğunu öyrənirlər. Təhlillərin aparılması, ani qərarlar və s. barədə təcrübələrini artırırlar. Hər bir təlim həm də böyük vəsait deməkdir. Məhz vəsaitin yoxluğu imkan vermir ki, ermənilər çoxsaylı texnikanın cəlb edildiyi güclü təlimlər keçirsinlər.

Biz isə qeyd etdiyiniz kimi, mütəmadi olaraq keçirdiyimiz hərbi təlimlərlə torpaqlarımızı azad etmək üçün başlayacağımız hərbi əməliyyatlara hazırlığımızı artırırıq. Bütün bunlar Qarabağ müharbəsində böyük qələbənin hazırlıq məşqidir. Qarabağ məsələsində Azərbaycan tərəfi haqlıdır, öz torpaqlarını işğaldan azad etmək qətiyyətindədir! Cənab İlham Əliyevin bəyan etdiyi kimi, Azərbaycan bir qarış torpağını belə güzəştə getməyəcək, öz torpaqlarında ikinci bir erməni dövlətinin yaranmasına yol verməyəcək! Təəssüf ki, ATƏTin Minsk qrupu və digər beynəlxalq təşkilatlar BMT-nin məlum dörd qətnaməsinin icrasını təmin etmirlər. Dünyada ikili standartlar var! Onlar daim deyirlər ki, məsələ sülh yolu ilə həll olunsun! Sülh yolunda isə Ermənistan danışıqlara gəlmir, yaxud, onu danışıqlara gətirmirlər. Bu mənada sülh danışıqları məhz erməni tərəfinin destruktivliyi səbəbindən baş tutmur. Lakin bir dəfə də olsun Ermənistan rəhbərliyinə sual etmirlər ki, sənin qoşunların Azərbaycan torpaqlarında nə gəzir. Ali Baş Komandan İlham Əliyev də bəyan etdi ki, əgər erməni əsgəri ölmək istəmirsə, Azərbaycan torpaqlarından rədd olub getsin!

Biz hələ ki, sülh danışıqlarına sadiqik. Lakin hərb variantı da istisna deyil! Ordunun modernləşdirilməsi, yeni silahların alınması, keçirilən təlimlər Azərbaycanın ərazi bütövlüyünün bərpasına xidmət edir. Əgər beynəlxalq qurumlar istəmirlərsə müharibə baş versin, birinci növbədə problemin sülh yolu ilə həllinə nail olmalıdırlar. Onlar işğalçını öz adı ilə çağırmalıdırlar! BMT-nin qətnamələrini yerinə yetirməlidirlər! Bunların heç biri yoxdursa, onda hərbi əməliyyatdan çəkindirmək, snayperləri təmas xəttindən geri çəkmək, atəşkəsə əməl etmək barədə çağırışların heç biri effekti olmayacaq! Çünki Azərbaycan öz torpağını, işğal edilmiş ərazilərini azad etmək istəyir! Bunu hər bir Azərbaycan vətəndaşı, hər bir zabit və əsgər istəyir! Bu məsələ nə qədər tez sülh yolu ilə həllini tapsa, o qədər yaxşıdır! Çünki artıq Azərbaycanın qüdrətli ordusu və qətiyyətli, prinsipial mövqeyi var! Bunu hamı bilməlidir: tək ermənilər yox, onların havadarları da! İndiyədək erməniləri sülh danışıqlarına vadar etməyən, yaxud danışıqlar masasına gətirmək istəməyən beynəlxalq təşkilatlar və dövlətlər də dərk etməlidir ki, Azərbaycanın səbri tükənməz deyil! Gücü isə kifayət qədərdir!

# Jurnalist olmaqdan öncə, əsl vətəndaş olmaq lazımdır

***Artıq sayılı günlər qalıb. Təxminən bir ay sonra haqqı və ehtiyacı olan 255 jurnalistə mənzil veriləcək. Təbii ki, tam təmənnasız şəkildə. Bu möhtəşəm layihənin müəllifi isə möhtərəm Prezidentimiz İlham Əliyevdir. Hər bir azərbaycanlının Prezidenti olan Cənab İlham Əliyev. Dövlətimizin başçısı növbəti humanist addımı ilə bir daha sübut etdi ki, bu gün dünyanın heç bir ölkəsində jurnalistə bu qədər qayğı ilə yanaşılmır, onun sosial problemlərinə bu qədər həssas şəkildə diqqət göstərilmir. Dövlətimiz hər bir vətəndaşına sahib çıxmağı bacarır, o cümlədən həkiminə, müəlliminə, jurnalistinə...***



2013-cü ildə 156 mətbuat nümayəndəsinin və onların ailə üzvlərinin yaşadığı böyük sevincdən bu il daha 255 jurnalistə pay düşəcək. Bundan gözəl nə ola bilər ki? İllərdir ev arzusunda olan, mətbuatımızın inkişafında mühüm xidmətləri ilə fərqlənən həmkarlarımız, nəhayət, öz şəxsi mənzillərinə qovuşacaqlar. Hesab edirəm ki, bu işin maddi tərəfi ilə yanaşı, mənəvi çalarları daha diqqətçəkəndir. Hər bir halda, dünyada bənzəri olmayan bu xeyirxah, nəcib təşəbbüsü, sadəcə olaraq, ən azından alqışlamaq lazımdır.

Təəssüf ki, bəzən insanın içindəki qaranlıq məqamlar, bəslədiyi kin və qərəz ətrafda baş verən müsbət hadisələri görməyə imkan vermir. Dövlətin öz vətəndaşına sahib çıxmasına, onun sosial problemlərinin həllinə dəstək olmasına əyri gözlə baxanlar bu incə məqamda belə mövcud durumdan şəxsi maraqları üçün istifadə edərək, xəbisliyi büruzə verməyə çalışırlar. Beləlləri şəxsi və korporativ maraqları naminə dövlətin fəaliyyətinə, onun müdrik siyasətinin uğurlu nəticələrinə kölgə salmaq niyyətlərini ortaya qoyur, ictimai şüurla manipulyasiya edərək, çaşqınlıq yaratmağa cəhd göstərirlər.

Bir müddət əvvəl, "dövlət jurnalistə niyə ev verməlidir" kimi mənasız, gülünc çağırışlar edən bəzi münəccimlər indi atılıb-düşüblər ortaya ki, bəs filan jurnalistlərin ev almağa haqqı var. Özü də əllərində tərtib etdikləri qondarma "siyahılarla". Bu günlərdə "qabağa düşən" Əvəz Zeynallı Milli Mətbuat Günündə jurnalistlərə verilməsi planlaşdırılan mənzillərlə bağlı saxta və qondarma "sorğu" keçirib. Ə.Zeynallının keçirdiyi "sorğunun" nəticələrində böyük əksəriyyəti jurnalistikaya aidiyyəti olmayan, daim informasiya təxribatı törətməyə cəhd edən "jurnalistlərin", sosial şəbəkə trollarının adları əks olunub. Mətbuat Şurasının "qara siyahısı" da əlavə etsək, "siyahı" tamamlanar.

Bu cür halların baş verməsini təbii qarşılayıram. Çünki cəmiyyətdə hər ağılda, hər əqidədə insana rast gəlmək olar və hər kəs öz düşüncəsinə görə davranır, addım atır, nəyəsə qiymət verməyə çalışır. Ancaq jurnalistikada olub, jurnalistlərin maddi vəziyyətini bilib, "dövlət jurnalistə niyə ev verməlidir" kimi qərəzli və yersiz çağırış etmək normal və sağlam düşüncə tərzindən uzaqdır. Guya bu zaman jurnalistlər dövlətdən asılı vəziyyətə düşürlər və öz müstəqilliklərini itirirlər. Məsələyə tamamilə qərəzli, qeyri və obyektiv yanaşmadır bu. Dövlətimiz jurnalistlərə hər hansı bir formada dəstək olanda, onları siyasi baxışına görə ayırmır. 2013-cü ildə mətbuat işçiləri üçün istifadəyə verilən binadan ev alan jurnalistlərin siyahısına nəzər yetirsək, bir daha bunun şahidi olarıq.

Bəzi xarici dairələrin, casusların əlində alət olmaq yaxşıdır, yoxsa dövlətə və millətə bağlı olmaq? Və ya dövlətçiliyi, ümummilli dəyərləri hər şeydən üstün tutmaq? Jurnalist olmaqdan öncə, əsl vətəndaş olmaq şərəflidir, yoxsa "müəyən" marağa görə satılmaq? Qarşıya qoyduğum seçimlər arasında yerlə-göy qədər, hətta balaca bir uşağın belə dərk edəcəyi qədər fərq var. Təəssüf ki, öz "seçimini" edən, yanlış yolda yürüyənlər üçün bunu başa düşmək və qəbul etmək çətin olar. Bu, məsələnin bir tərəfi...

Maraqlıdır bir müddət əvvəl, dövlətin jurnalistlərə ev verilməsinə qarşı çıxan Ə.Zeynallı, görəsən, nə oldu ki, əlinə bir "siyahı" alıb düşdü ortaya? Pişik asqırdı? Sözsüz ki, burada pişiyin yox, el misalında deyildiyi kimi, pişik kimi ağzı ətə çatmayanların "qəbahəti" böyükdür. Jurnalistlərin mənzillərlə bağlı müraciətlərini qəbul edən komissiya ilk gündən şərtləri açıqladı və bəyan etdi ki, mövcud kriteriyalara uyğun gələn jurnalistlər ev almaq üçün öz namizədliklərini irəli sürə bilərlər. Bu qədər açıq və dəqiq. Şərtləri sadalamaq fikrim yoxdur. Sadəcə, onu deyim ki, fəaliyyəti boyu "şəxsi maraqlarının" arxasına düşüb əli özgələrin cibində olan, necə deyərlər, 5 qəpiyə görə hər şey etməyə hazır olan, əqidəsini və peşəsini satan "jurnalistlər" bu layihədən kənarda qaldı. Hesab edirəm ki, tamamilə ədalətlidir. Çünki hər zaman təmiz, obyektiv və əqidəli şəkildə jurnalistika fəaliyyəti ilə məşğul olan insanları "bələləri" ilə eyni tərəzinin gözünə qoymaq böyük haqsızlıq olardı məncə. Bu mənada, Ə.Zeynallının məlum "sorğusu" əsasında hazırlanan "siyahı" hər şeydən xəbər verir.

Doğrudur, siyahıda adları əks olunan bəzi jurnalistlərin, həqiqətən də, dövlətin jurnalistlər üçün inşa etdirdiyi binadan mənzil almağa haqları çatır, hətta müəyyən bir hissəsinin namizədlikləri belə onların işlədikləri redaksiya heyəti tərəfindən irəli sürülüb. Mən komissiyanın üzvü kimi iştirak etdiyim bəzi redaksiyalarda bunun şahidi olmuşam. Amma bu, onu isbatlayır ki, Ə.Zeynallı bu cür vasitələrlə "sorğuya" ədalət donu geyindirməyə çalışır. Həqiqətən də, Ə.Zeynallı ədalətli sorğu keçirmək niyyətində olsaydı, Azərbaycan jurnalistikasının inkişafında xidmətləri olan, uzun illərdir ki, bu sahədə fəaliyyət göstərən, qələmi ilə medianın inkişafına töhfələr vermiş insanların da adları orada qeyd olunardı. Elə onun "Facebook"da "sorğusu" ilə bağlı edilən paylaşıma yazılan rəylərdən də bəlli olur ki, bu iş sağlam əsaslar üzərində qurulmayıb. Ə.Zeynallının "Facebook"dakı bu "sorğusu" ilə bağlı sosial şəbəkələrdə yazılan rəylər bir daha təsdiq edir ki, bu, qeyri-ciddi müzakirə obyektindən başqa bir şey deyil.

Ə.Zeynallıya heç kəs haqq verməyib ki, Azərbaycan jurnalistləri adından danışsın. Hazırda mətbuat sektorunda bu sahənin inkişafında xüsusi xidmətləri olan insanların "mənzil almağa haqqı yoxdur" demək birbaşa onlara qarşı edilən ədalətsizlik və hörmətsizlikdir. Hesab edirəm ki, qeyri-ciddi "sorğular" keçirib, onun əsasında münəccimlik etmək əvəzinə, ciddi jurnalistika ilə məşğul olmaq daha məqsədəuyğundur. Ona görə də, sağlam düşüncəli, peşəkar, ictimaiyyət arasında kifayət qədər nüfuzu olan media nümayəndələri bu məsələ ilə bağlı öz mövqelərini ortaya qoymalıdırlar.

Dövlətin bu böyük və möhtəşəm layihəsinə hansısa formada ləkə yaxmağa cəhd etmək ən azı haqsızlıqdır. Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun icraçı direktoru, jurnalistlərin mənzillərlə bağlı müraciətlərini qəbul edən 9 nəfərdən ibarət komissiyanın sədri Vüqar Səfərlinin rəhbərliyi ilə daxil olan müraciətlərə ədalətli, şəffaf şəkildə baxılıb və mövcud şərtlərə uyğun gələn sənədlər qəbul edilib. Müraciətlər kifayət qədər çoxdur, lakin mənzillərin sayı məhduddur. Ancaq təəssüflənməyə dəyməz. Hesab edirəm ki, bu layihənin davamı gələcək. Əsas odur ki, bu dəfə mənzil alacaq 255 həmkarımızın xoş gününə sevinəcək qədər böyük ürəyimiz olsun. Bunu bacarmayanlar isə çirkin niyyətlərini ürəklərində saxlasalar daha yaxşı olar. Ta ki, son mənzilə kimi...

***Vüqar Rəhimzadə,
"İki sahil" qəzetinin baş redaktoru,
Mətbuat Şurası İdarə Heyətinin üzvü***

# "Müharibə qaçılmazdır"

## *"Dağlıq Qarabağ münaqişəsini həll edəcək tək qüvvə özümüzük"*

***ATƏT-in Minsk Qrupunun həmsədrlərinin regiona səfəri bitməmiş erməni diversiya qrupu cəbhədə təxribat törətməyə cəhd etdi. İyunun 21-də işğalçı ölkənin diversiya qrupu növbəti təxribata cəhd edən zaman ciddi itkilərə məruz qalıb. Kəşfiyyat qrupunun bir nəfər üzvi Azərbaycan Silahlı Qüvvələri tərəfindən ələ keçirilib. Ermənilərin bu cür təxribatlarının intensiv xarakter daşımasının səbəbi nədir? ATƏT-in Minsk Qrupunun həmsədrlərinin bu dəfəki səfərinin də münaqişənin həllinə heç bir töhfə vermədiyini demək olarmı? Söhbət etdiyimiz müsahiblərimiz ermənilərin təxribatlarının onların itkilərinin sayının qat-qat artmasına səbəb olacağını bildirdilər.***

***Millət vəkili Azər Badamov:***



- Hər zaman ATƏT-in Minsk Qrupunun həmsədrləri regiona səfərləri zamanı ermənilər genişmiqyaslı təxribatlara əl atırlar. İyunun 21-də düşmənin təxribat qrupunu aşkarlayan milli ordumuz diversiya qrupunu zərərsizləşdirmiş və bir nəfər kəşfiyyatçını da əsir almışdır. Erməni kəşfiyyatçısının etirafından da görünür ki, düşmən təxribatlar yaradaraq, həmsədrlərin diqqətini cəlb etməklə, təmas xəttində beynəlxalq nəzarətinin həyata keçirilməsinə nail olmaq və status-kvonu saxlamaq istəyirlər. Bəlkə də, erməni təxribatları havadarlarıyla razılaşdırılmış ssenari üzrə təşkil olunur və münaqişəni uzatmaq məqsəsi daşıyır. Amma ermənilər başa düşməlidir ki, bu həmişəlik belə davam edə bilməz . Azərbaycan Ordusu daha güclənir. Ermənilər Azərbaycan Ordusu qarşısında heç vaxt dayana bilməz. Düşünürəm ki, vəziyyət belə davam edərsə, müharibə qaçılmazdır. Azərbaycanın öz torpaqlarını işğaldan azad etməyə haqqı var və bu, beynəlxalq normalara da uyğun gəlir. Mən inanmıram ki, ATƏT-in Minsk Qrupunun həmsədrləri münaqişənin həlli istiqamətində hər hansı bir irəliləyişə nail olsunlar. Əgər bu belə olmasaydı, münaqişə uzunmüddətli olmazdı və ədalət öz yerini çoxdan tutmuşdu. ATƏT-in Minsk Qrupunun həmsədrləri vaxtaşırı regiona səfərləri ancaq rəsmiyyət xarakteri daşıyır. Yəni ATƏT-in Minsk Qrupu özünü münaqişənin sülh yolu ilə həllində maraqlı olduğunu göstərir. Amma bu, həqiqətən belə olsaydı, ATƏT Ermənistana hər hansı bir təzyiq göstərərdi. Təəssüf ki, bu, baş vermir. Əgər beynəlxalq ictimaiyyət Ermənistana təzyiqə başlanmazsa, münaqişənin sülh yolu ilə həllindən danışmaqdan söhbət gedə bilməz.

***Siyasi şərhçi Azər Həsrət:***



- Ermənilər cəbhədə təxribat törətməklə, yəqin ki, sonradan Azərbaycanı ittiham etmək üçün bəhanələr uydurmağı planlaşdırıblar. Amma Azərbaycan tərəfinin sayıqlığı nəticəsində, onların təxribatı hədəfinə çata bilmədi. Əksinə, özləri hədəfə tuş gəldilər və yəqin ki, biz bu imkandan uyğun şəkildə istifadə etməliyik. ATƏT-in Minsk Qrupu həmsədrlərinin səfərinə gəlincə, həmişəki fikrimdə qalıram: "Bunlar, sadəcə, turist səfəri edirlər, gəlib-gedirlər. Yəni Dağlıq Qarabağ münaqişəsinin həll ilə bağlı ortalıqda heç bir nəticə olmur və olacağına da inam yoxdur. Çünki ATƏT-in Minsk Qrupunun həmsədr ölkələrinin hər üçü Dağlıq Qarabağ münaqişəsinin həlli üçün deyil, öz mənafeləri üçün çalışır. Belə olan halda da, Dağlıq Qarabağ münaqişənin həll edəcək tək qüvvə özümüzük. Başqa cür mümkün deyil".

***GÜLYANƏ***

# Yeni Azərbaycan Partiyası bir qrup əsgər və zabitin ailə üzvləri ilə birlikdə yay istirahətini təşkil edib

***Yeni Azərbaycan Partiyasının təşəbbüsü və vəsaiti hesabına Lənkəran rayonu ərazisində yerləşən "Palıdlı sahil" İstirahət Mərkəzində ötən ilin aprel ayında erməni silahlı birləşmələrinin qoşunların təmas xəttində təxribatçı hərəkətlərinin qarşısını cəsarətlə və qətiyyətlə almış Azərbaycan Respublikası Silahlı Qüvvələrinin bir qrup əsgər və zabitinin ailə üzvləri ilə birlikdə yay istirahəti təşkil edilib. Məlumdur ki, Azərbaycan Respublikası Silahlı Qüvvələrinə ümumxalq inamının və dəstəyinin əyani ifadəsi olaraq YAP Azərbaycan Respublikası Silahlı Qüvvələrinə Yardım Fonduna bir neçə dəfə maliyyə vəsait köçürüb, dəfələrlə müxtəlif formalarda, o cümlədən, xeyriyyə tədbirləri təşkil edib.***





Aksiya çərçivəsində "Palıdlı sahil" İstirahət Mərkəzində istirahət edənlər sırasında Azərbaycanın Milli Qəhrəmanı Çingiz Qurbanovun valideynləri və qardaşından ibarət ailə üzvləri də var. Çingiz Qurbanovun atası Salman Qurbanov bildirib ki, Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev Vətənin müdafiəsi uğrunda canından keçmiş qəhrəman şəhidlərimizin ailələrinə xüsusi diqqət və qayğı ilə yanaşır: "Silahlı Qüvvələrimizin əsgər və zabitlərinə, o cümlədən, şəhid ailələrinə göstərilən yüksək diqqət və qayğıya görə Ali Baş Komandan, Prezident İlham Əliyevə minnətdarlıq edirəm, Yeni Azərbaycan Partiyası tərəfindən atılmış bu vətənpərvər addım Azərbaycan Respublikası Silahlı Qüvvələrinə, onun əsgər və zabit heyətinə ümumxalq inamının və dəstəyinin, ordu və xalqın möhkəm birliyinin əyani ifadəsi kimi dəyərləndirilməlidir".

Aprel döyüşləri zamanı şəhidlik zirvəsinə yüksəlmiş kapitan Nəcməddin Savalanovun qardaşı Pərviz Savalanov isə bildirib ki, aprel döyüşləri Azərbaycan Ordusunun qəhrəmanlıq nümunəsidir: "Azərbaycan Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin xüsusi diqqət və qayğısı Ordumuzda böyük ruh yüksəkliyi yaradıb. Bu gün Azərbaycan şəhid ailələri, eləcə də, müharibə əlillərinə göstərdiyi qayğıya görə dünya ölkələrinə nümunədir". YAP-ın daim şəhid ailələrinə xüsusi diqqət və qayğı ilə yanaşdığını söyləyən Pərviz Savalanov "belə bir xeyirxah aksiyaya görə Yeni Azərbaycan Partiyasına xüsusi minnətdarlıq edirik" - deyə əlavə edib.

"Biz döyüşə atılarkən Milli Ordumuzun gücünə, eləcə də, xalqımızın və dövlətimizin dəstəyinə güvənirdik". Bu fikirləri aprel döyüşləri zamanı Vətənin müdafiəsi uğrunda sağlamlığını itirmiş baş leytenant Azər Məmmədov bildirib. O, qeyd edib ki, dövlətin bu cür yüksək səviyyəli diqqət və qayğısı, dəstəyi hərbçilərimizi də qələbəyə ruhlandırıb. "Aprel döyüşləri zamanı düşmən Azərbaycan əsgərinin, Ordumuzun gücünü gördü. Mən Ordumuzla, Ali Baş Komandanımızla fəxr edirəm. İndi dövlətimizin yüksək diqqət və qayğısı sayəsində mən ailəmlə birlikdə burada istirahət edirəm".

"Aprel döyüşlərindən sonra dövlətin yaralı əsgərlərimizə, eləcə də, şəhid ailələrinə göstərdiyi diqqət və qayğı onu göstərdi ki, məhz bizim arxamızda Azərbaycan Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev dayanır"". Bu fikirləri isə erməni silahlı qüvvələrinin təxribatçı hərəkətlərinin qarşısını alarkən şəhid olmuş topçu əsgər Sərxan Bağırovun anası Aytəkin Rzayeva deyib: "Döyüşlərdən sonra həm Prezident İlham Əliyev, həm də ölkəmizin Birinci Xanımı, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyevanın yaralı döyüşçülərə baş çəkməsi, onların qayğıları və problemləri ilə maraqlanması, bir daha onu sübut etdi ki, dövlətimiz hər zaman ordumuzun yanındadır. Bu cür yüksək səviyyəli diqqət və qayğı şəhid ailələrində böyük ruh yüksəkliyinə səbəb olur, biz dövlətimizin bu cür qayğısını minnətdarlıq hissi ilə qarşılayırıq".

Aprel döyüşlərində şəhid olmuş Müşfiq Orucovun atası Arif Orucov da, öz növbəsində, belə bir xeyirxah aksiyanın təşkilinə görə Yeni Azərbaycan Partiyasına minnətdarlıq edərək bildirib ki, dövlətimizin şəhid ailələrinə yüksək diqqət və qayğı ilə yanaşması qürurvericidir.

***Nurlan QƏLƏNDƏRLİ***

# 5 yaşlıların 65 faizi məktəbə hazırlığa cəlb ediləcək



Növbəti tədris ilində Bakıda bütün 5 yaşlıların 65 faizinin məktəbə hazırlığa cəlb edilməsi nəzərdə tutulub. Bakı Şəhəri üzrə Təhsil İdarəsindən (BŞTİ) SİA-ya verilən məlumata görə, 2015-ci ildə məktəbəhazırlıq proqramı bütün 5 yaşlı uşaqların 24 faizini əhatə edirdisə, 2016-cı ildə bu göstərici 55 faiz olub. 2015-ci ildə məktəbəhazırlıq proqramı bütün 5 yaşlı uşaqların 24 faizini əhatə edirdisə, 2016-cı ildə bu göstərici 55 faiz olub. 2016-2017-ci tədris ilində BŞTİ-nin tabeliyindəki 261 məktəbdə fəaliyyət göstərən 839 məktəbəhazırlıq qrupunda 23 130 uşaq təhsil alıb.

# Nizami rayonunda 26 İyun Silahlı Qüvvələr Günü qeyd edilib

*YAP Nizami rayon təşkilatının hazırladığı "Bəhruz Nuriyev: ölməz və örnək qəhrəman" adlı filmin təqdimatı olub*

***Dünən Nizami rayon icra hakimiyyəti və YAP Nizami rayon təşkilatınının birgə təşkilatçılığı ilə 250 saylı tam orta məktəbdə 26 İyun Silahlı Qüvvələr Günü münasibətilə tədbir keçirilib. Tədbir iştirakçıları əvvəlcə şəhid Bəhruz Nuriyevin məktəbin qarşısındakı büstünü ziyarət edərək, önünə gül dəstələri düzüblər.***





Azərbaycan Respublikasının ərazi bütövlüyü və suverenliyi uğrunda canından keçmiş şəhidlərimizin xatirəsi bir dəqiqəlik sükutla yad etdikdən sonra YAP Nizami rayon təşkilatının hazırladığı "Bəhruz Nuriyev: ölməz və örnək qəhrəman" adlı filmin təqdimatı olub.

Filmdə şəhid B.Nuriyevin uşaqlıq və gənclik illərindən, onun keçdiyi uzun döyüş yolundan və qəhrəmanlığından bəhs edilib.

Sonra B.Nuriyevin ailə üzvləri və döyüş yoldaşları onunla bağlı xatirələrini bölüşüblər. Tədbirdə çıxış edən Nizami rayon icra hakimiyyəti başçısının müavini Gülnaz İsrafilova ordumuzun şanlı tarixindən, onun yaradılmasından danışaraq, bu günün bayram kimi tarixiləşməsinin müəllifinin müasir Azərbaycan Ordusunun qurucusu, xalqımızın Ümummilli Lideri Heydər Əliyev olduğunu vurğulayıb: "Ordu quruculuğu üçün vacib şərtlərdən biri dövlətin müstəqilliyi amilidirsə, digər vacib şərt iqtisadi potensialın və sabitlik şəraitinin yaradılmasıdır. Ulu Öndər Heydər Əliyevin 22 may 1998-ci il Fərmanına əsasən, Əlahiddə Azərbaycan Korpusunun yarandığı gün - 26 İyun Azərbaycan Respublikasının Silahlı Qüvvələri Günü elan olunub və hər il bu tarix rəsmi dövlət bayramı kimi qeyd edilir".

Tədbirdə YAP Nizami rayon təşkilatının sədri, Milli Məclisin deputatı Sədaqət Vəliyeva bildirib ki, Ulu Öndər Heydər Əliyevin ordu quruculuğu siyasəti ilə bağlı başladığı işlər Onun siyasi kursunun layiqli davamçısı, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən uğurla davam etdirilir: "Bu gün Azərbaycan Ordusu regionun ən güclü ordusudur. Böyük quruculuq yolu keçərək, öz peşəkarlığını artıran ordumuz maddi-texniki bazasını mütəmadi gücləndirərək, düşməni hər an məhv etməyə və işğal altında olan torpaqlarımızı tez bir zamanda azad etməyə hazırdır".

Tədbirdə digər çıxış edənlər də Azərbaycan Respublikasının ərazi bütövlüyünün, müstəqilliyinin qorunub-saxlanılması uğrunda əlil olmuş şəxslərin və şəhid ailələrinin hərtərəfli dövlət qayğısı ilə əhatə olunduqlarını vurğulayıb, ölkəmizin dinamik inkişafı və bu istiqamətdə aparılan geniş quruculuq işlərinin, köklü islahatların daha böyük nəticələrin əldə ediləcəyinə ümidvar olduqlarını bildiriblər.

***Nəzakət ƏLƏDDİNQIZI***

# Çində Dünya İqtisadi Forumunun Asiya sammiti keçiriləcək




İyunun 27-29-da Çinin Dalyan şəhərində Dünya İqtisadi Forumunun illik Asiya sammiti keçiriləcək. "Yay Davosu" adlandırılan sammitdə 90-dan çox ölkədən 2000-ə yaxın nümayəndə, o cümlədən hökumət rəsmiləri, regional təşkilatların və iri şirkətlərin rəhbərləri, vətəndaş cəmiyyətinin təmsilçiləri iştirak edəcəklər. Sammitdə innovasiya, elm və texnologiyanın inkişafının iqtisadi proseslərə təsiri məsələləri müzakirə olunacaq. Qeyd edək ki, "Yay Davosu" 2007-ci ildən bəri təşkil edilir.

# Bayramda dəmir yolu gücləndirilmiş iş rejiminə keçəcək

Bayram günlərində sərnişin axınının artması adi hala çevrilib. Rahat və ucuz nəqliyyat vasitəsi kimi ölkə vətəndaşları dəmir yolunun xidmətindən istifadəyə üstünlük verirlər. Bununla əlaqədar olaraq, "Azərbaycan Dəmir Yolları" Qapalı Səhmdar Cəmiyyətinin Sərnişin daşımaları Departamentinin kollektivi Ramazan bayramı ərəfəsində gücləndirilmiş iş rejimində çalışacaq. "Azərbaycan Dəmir Yolları"ndan SİA-ya verilən məlumata görə, sərnişin qatarlarında xidmət mədəniyyətinin səviyyəsinin daha da yüksəldilməsi üçün bütün qüvvələr səfərbər olunub. Ramazan bayramı ərəfəsində sərnişin sıxlığının artması ilə əlaqədar, ölkə daxilində hərəkət edən sərnişin qatarlarına hər gün 15-ə yaxın əlavə vaqonun qoşulması təmin ediləcək. Bir daha sərnişinlərin nəzərinə çatdırırıq ki, sərnişin qatarlarına bilet satışı 10 gün qabaqcadan, əlavə vaqonlara isə bilet satışı həmin vaqon qatara qoşulan gün həyata keçirilir.

# Fikrət Məmmədova "SƏS"li cavab!

*Və ya erməni dədə-babasına xoş gəlmək istəyən Feliks Mamumkyan, ya da Fantey Melikyan*

***Demək, rus dilində səlist danışdığına görə özünü çox "ağıllı", "savadlı" və "intelligent" hesab edən, ictimaiyyət arasında, sosial şəbəkədə fikirlərini yalnız rus dilində ifadə edən Fikrət Məmmədov adlı bir iş adamı "Nəyə görə fikirlərini Azərbaycan dilində ifadə etmirsən?!" ittihamlarından cuşa gəlib və ona qarşı irəli sürülən ittihamlar, necə deyərlər, "çeştinə" dəyib. Üstəlik, Azərbaycan dilini onun "doğma dili" olmasına rəğmən təhqir edib. Ancaq bəri başdan deyim ki, bütün bunlardan sonra F.Məmmədovun damarlarından azərbaycanlı qanı axmasına şübhələri var. Çünki yalnız azərbaycanlı olmayan kəs - məsələn, mənşəyində erməni, yaxud da digər bir xalqın qanı axan şəxs bu cür fikirləri ortaya ata bilərdi. Əgər F.Məmmədov öz sözlərini geri götürmürsə, əksinə, özünə haqq qazandırmağa çalışırsa, onda bu adamın genini laborator üsulda yoxlamaq lazımdır. 100% əminliklə deyə bilərik ki, onun qanı qarışıq çıxacaq!***



## Damarlarındakı ən molekulyar rüşeymlərinə qədər işləmiş erməniçilik geni buna imkan verməz!

F.Məmmədov iddia edir ki, Azərbaycan dili "yaltqalıq", "yalmanma", "kompetentlikdən kənar", "savadsızlıq", "geridə qalmışların" diliymiş. Demə ki, bu dildə "proqressiv ədəbiyyat" yoxdur, yaxud da "elmi və texniki əmək" də bu dilə aidiyyətsizdir. Yaxşı, onda bu erməni geni daşıyıcısına sualım var ki, qarşısına istər keçmiş, istərsə də



## Bu gün Fikrət Məmmədovla Leyla Yunusu müqayisə etsək, onların arasında, ümumiyyətlə heç bir fərqin olmadığını əminliklə vurğulaya bilərik

Digər tərəfdən, onu da xatırlatmaq yerinə düşərdi ki, F.Məmmədova qədər bir neçə dəfə bu cür hallar yaşanıb və biz Leyla Yunus adlı erməni geni daşıyıcısının bir neçə il öncə Bakıda keçirdiyi mətbuat konfranslarının birində Azərbaycan dilində danışmamasının səbəblərinə toxunarkən, irəli sürdüyü fikirlərinə qayıda bilərik. Həmin vaxt o, yalnız söyüş söyəndə (?!) Azərbaycan dilində danışdığını bəyan etmişdi. Üstəlik, sonrakı illərdə dövlət maraqlarına zidd fəaliyyətinə və s. faktorlara görə həbs olunarkən, L.Yunusun Avropada yaşayan qızı Dinara Qarabağ cəbhəsində erməni təxribatı nəticəsində şəhid olmuş əsgərlərimizi təhqir etmişdir. Bu, bir erməni qanı daşıyıcısının fikirləri idi və bu gün F.Məmmədovla L.Yunusu müqayisə edərsək, onların arasında, ümumiyyətlə, heç bir fərqin olmadığını əminliklə vurğulaya bilərik.

müasir dövrümüzün yüzlərlə tanınmış ədəbiyyat adamlarının adlarını və əsərlərini, həmin əsərlərin bir çox xarici dillərə tərcümələrini qoysam, elmi və texniki nailiyyətlər barədə külliyyatları da onların yanına əlavə etsəm, sözlərini geri götürərsənmi? Yenə də, yox! Ona görə ki, damarlarındakı ən molekulyar rüşeymlərinə qədər işləmiş erməniçilik geni buna imkan verməz! Bu səbəbdən, dünya dilləri içində şeir və ədəbiyyat, yaradıcılıq, şücaət dili olan AZƏRBAYCAN DİLİ bu ünsürün xoşuna gəlmir...

## Sənin kimi erməni soyluların yavaş-yavaş üzə çıxması Azərbaycan dilinin mikrob və çirkablardan təmizlənməsi və paklanması ilə nəticəsini tapır

Gəlmirsə, öz işidir, onda bu dildə danışan dünyadakı 50 milyonluq azərbaycanlını təhqir etmək nəyə gərəkdir? Bəlkə elə sənin özün bu dilə aid etdiyin "çatışmazlıqların" hər birinə aidsən? Bəlkə sənin özün rusa, xüsusilə də, ERMƏNİ DƏDƏ-BABALARINA xoş gəlməkdən ötrü yaltaqlıq, yalmanlıq edərək ümumi şəkildə rusca fikirlər bildirirsən? Axı ermənilər də, tarixlər boyu olduğu kimi, indinin özündə də rus buxovunda qalmaqla yanaşı, özlərini Rusiyadan kənar görə bilmirlər.

Və sən - F.Məmmədov, iddia edirsən ki, heç kim sənə bu dildə danışmağı əmr edə bilməzmiş. Bəli, elə yaxşı ki, özün-özünü qəşəngcə ifşa etmiş oldun. Öyrəndik ki,



içimizdə erməni geni daşıyan bir nəfər var və sənin kimi erməni soyluların yavaş-yavaş üzə çıxması Azərbaycan dilinin təmizlənməsi, paklanması ilə nəticəsini tapır.

Rövşən NURƏDDİNOĞLU

***P.S. Hə, unutmuşdum deyəm, bu dilə nifrət edirsənsə, nəyə görə sosial şəbəkədəki profilinə azərbaycanlı ad-soyadı qoymusan? Yaxşı olmazdımı ki, əsl həqiqəti, gerçəyi etiraf edərək, özünün Fikrət Məmmədov yox, məsələn Feliks Mamumkyan, ya da Fantey Melikyan olduğunu bəyan edəsən?***

***P.P.S. Yazı çapa hazırlanarkən, bizim nəticələrimizin yanlış olmaması, yəni F.Məmmədovun qanında erməni qanının axmasını etdiyimiz iddia öz təsdiqini tapmış oldu. Məsələ ondadır ki, bu ünsürün babası Məhəmmədin həyat yoldaşı, yəni doğma nənəsi Amaliya adlı ermənidir (!!!). Həmin "ənənəni" atası Kərim də davam etdirib və əslən Krımdan olan erməni qızı Elvira (ləqəbi Elya-R.N.) ilə evlənib. Əslində, atasının Kərim olması da ciddi şübhə doğurur. Çünki Rusiyadan Bakıya qayıtdıqları zaman Elya artıq yeddi aylıq hamiləymiş. Özü isə iki dəfə ailəli olub, daha sonra ailəsini və üç övladını ataraq, tüfeyli həyat tərzi keçirməyə başlayıb. Bu gün F.Məmmədov adı altında gizlənən bu ermənininin anasının Tamara, Janna və Yana adlı digər erməni əsilli qohumları da Bakı şəhərində, onun nifrət etdiyi, düşmən kəsildiyi Azərbaycan dilli əhatədə yaşamaqdadır. Ona görə də, yazımızın davamı gözlənilir. Çünki apardığımız araşdırmalardan sonra bu erməni tayfasının nə işlə məşğul olduqları və kimlikləri barədə mütləq məlumatlar verəcəyik.***

## Fikrət Məmmədova tərs şillə...

*Fikrət Məmmədov adlı bir iş adamı öz rus ibarələri ilə dilimizin təhqirinə girişib*

Fikrət Məmmədovdu bu iş adamı,
Yaman dəyişdirib gərdiş adamı.
Rusca qarıldayır qarğalar kimi,
Çapmaqda dördnala yorğalar kimi.
Deyir Azərbaycan dili çox kobud,
Zəriflik qatmayıb bu dilə Qorqud.
Bu dildə əskikdi sığal elə bil,
Adi yaltaqların dilidi bu dil.
Bu dildə qalmayıb qüdrət, kəsər də,
Heç vaxt yazılmayıb ciddi əsər də.
Bu dildə nə yaxşı şeir, roman var,
Ancaq sınıq-salxaq beş-üç hamam var.
Bu dildə danışan buraxar qələt,
Onda nə maarif var, nə mədəniyyət.
Bütün mahnıları monoton səsdir,
Sazı, muğamı da quru nəfəsdir.

Dildə zənginliyə arxalanaraq,
Ona cavab verim mən də bu sayaq:
"Dili pisləməyin əbəs səyindir,
Qüsurun bu dili pis bilməyindir.
O kəs ki, bəyənmir doğma dilini,
Kükrədir üstünə qəzəb selini.
Cavab tədarükün görülməkdədir,
Aşının suyu da verilməkdədir.
Sənin kimilərin düşüncəsi dar,
Bu dilin Füzuli, Nəsimisi var.
Əlbəttə, sən özün uzunqulaq, xər,
Bu dildə alimlər kifayət qədər.
Bu dili pisləyən beş-üç müxalif,
Onların içində sən nankor hərif.
Leyla söyüş dili deyib bu dilə,
Bir boyunduruğa girdi səninlə.
Lüt-üryan gəzərək xirməni kimi,
Xədicə pislədi erməni kimi.
Onu yamanlayan, qılınclayan çox,
Sənin də gözünə olub iti ox.
A Fikrət, bu dili pisləyən azmı?
Sən də söyləməsəydin, yaxşı olmazmı?

**Valeh Məhərrəmli**

## ABŞ 8 min tondan çox qızıl ehtiyatı ilə dünyada birinci yeri tutur

***Ümumilikdə dünya üzrə mərkəzi banklarda saxlanan 33 min 425 ton qızılın 10 min 785 tonu Avropadadır.***



AZƏRTAC Anadolu informasiya agentliyinə istinadla xəbər verir ki, Dünya Qızıl Birliyinin məlumatına əsasən, ABŞ 8 min 133 ton qızıl ehtiyatı ilə ilk sırada qərarlaşıb. İlk beşliyə, həmçinin Almaniya (3 min 377 ton), İtaliya (2 min 451 min ton), Fransa (2 min 435 ton) və Çin (1084 ton) daxildir. Dünya Qızıl Birliyi, Dünya Bankı və ölkələrin statistika qurumlarının məlumatlarına əsasən, İsveçrə inkişaf etmiş və inkişaf etməkdə olan ölkələr arasında Mərkəzi Bankda saxlanılan 40 ton qızıldan adambaşına düşən 123,5 qram qızıla görə birinci yeri tutur. Sonrakı yerlərdə adambaşına 49 qram qızılla Livan, 41,1 qram qızılla Almaniya, 40,4 qram qızılla İtaliya və 37,1 qram qızılla Portuqaliya qərarlaşır.

Türkiyənin Mərkəzi Bankı isə 436 ton qızıl ehtiyatından adambaşına düşən 5,5 qram qızılla dünya ölkələrinin mərkəzi bankları arasında 11-ci sırada yer alıb. Mərkəzi Bankda saxlanılan qızıl ehtiyatına görə Yəmən adambaşına düşən 0,06 qram qızılla son yerdə qərarlaşıb. Onun önündə isə Banqladeş (0,09 qram), Nigeriya və Kolumbiya (0,12 qram), Myanma (0,14 qram) yer alır.

MOSS-ADAMS LLP
Certified Public Accountants | Business Consultants

**Müstəqil Auditorun Rəyi**

**"RH" MMC-nin təsisçilərinə və rəhbərliyinə**

Biz "RH" MMC-nin 31 Dekabr 2016-cı il tarixinə konsolidə edilmiş maliyyə vəziyyəti haqqında hesabatdan, konsolidə edilmiş məcmu gəlirlər haqqında hesabatdan, konsolidə edilmiş kapitalda dəyişikliklər haqqında hesabatdan və göstərilən tarixdə başa çatan il üzrə konsolidə edilmiş pul vəsaitlərinin hərəkəti haqqında hesabatdan, habelə uçot siyasətinin əhəmiyyətli prinsiplərinin qısa təsviri də daxil olmaqla göstərilən tarixdə başa çatan il üzrə Şirkətin konsolidə edilmiş maliyyə hesabatlarının auditini aparmışıq.

**Rəy**

Hesab edirik ki, hesabatımızın "Rəy üçün əsaslar" bölməsində əks etdirilən məlumatları nəzərə alaraq, konsolidə edilmiş maliyyə hesabatları 31 Dekabr 2016-cı il tarixinə maliyyə vəziyyətini, habelə maliyyə nəticələrini və göstərilən tarixdə başa çatan il üçün pul vəsaitlərinin hərəkətini Maliyyə Hesabatlarının Beynəlxalq Standartlarına (İFRS) uyğun olaraq bütün əhəmiyyətli aspektlərdə ədalətli əks etdirir.

**Rəyin bildirilməsi üçün əsas**

Biz auditi Beynəlxalq Audit Standartlarına uyğun aparmışıq. Bu standartlar üzrə bizim məsuliyyət rəyimizin "Maliyyə hesabatlarının auditinə görə auditorun məsuliyyəti "bölməsində əks etdirilir.

Biz hesab edirik ki, əldə etdiyimiz audit sübutu auditor rəyinin bildirilməsi üçün yetərli və müvafiq əsası təmin edir.

**Müstəqillik**

Biz mühasiblər üçün Beynəlxalq Etika Standartları Şurasının dərc etdiyi Peşəkar Mühasiblərin Etika Məcəlləsinə uyğun olaraq Şirkətdən asılı olmadan müstəqil şəkildə fəaliyyət göstəririk.

**Konsolidə edilmiş maliyyə hesabatlarına görə rəhbərliyin və korporativ idarəetmə üzrə cavabdeh olan şəxslərin məsuliyyəti.**

Rəhbərlik hazırkı konsolidə edilmiş maliyyə hesabatlarının Beynəlxalq Maliyyə Hesabatı Standartlarına uyğun olaraq hazırlanması və düzgün təqdim edilməsi, eləcə də fırıldaqçılıq və yaxud səhv nəticəsində yaranmasından asılı olmayaraq, əhəmiyyətli təhriflər olmayan konsolidə edilmiş maliyyə hesabatlarının hazırlanması üçün rəhbərliyin zəruri hesab etdiyi daxili nəzarət sisteminə görə məsuliyyət daşıyır.

Konsolidə edilmiş maliyyə hesabatlarının hazırlanması zamanı rəhbərlik, şirkəti ləğv etmək və ya onun fəaliyyətini dayandırmaq istəyi yaxud bundan başqa hər hansı digər real alternativi olmadığı hallar istisna olmaqla,

Şirkətin öz fəaliyyətini fasiləsiz davam etdirmək qabiliyyətinin qiymətləndirilməsi, uyğun olduqda fəaliyyətin fasiləsizliyi ilə bağlı məlumatların açıqlanması və fəaliyyətin fasiləsizliyi prinsipinə əsasən konsolidə edilmiş maliyyə hesabatlarının hazırlanmasına görə məsuliyyət daşıyır. Korporativ idarəetmə üzrə cavabdeh olan şəxslər Şirkətin konsolidə edilmiş hesabatlarının hazırlanması prosesinə nəzarət üçün məsuliyyət daşıyırlar.

Bakı, Azərbaycan Respublikası, AZ 1065, Yasamal rayoun, C. Cabbarlı küç 44 Caspian Plaza, 14-cü mərtəbə, Tel/ Fax: (+994 12) 480 63 12, Mobil: (+994 50) 235 29 30, E-mail: office@mossadams.az, Lisenziya № 080848, AT/117

MOSS-ADAMS LLP
Certified Public Accountants | Business Consultants

**Konsolidə edilmiş maliyyə hesabatlarının auditinə görə auditorun məsuliyyəti.**

Bizim məqsədimiz fırıldaqçılıq yaxud səhv nəticəsində yaranmasından asılı olmayaraq maliyyə hesabatlarında əhəmiyyətli səhvlərə yol verilmədiyinə dair kifayət qədər əminlik əldə etmək və rəyimizi özündə əks etdirən auditor hesabatlının hazırlanmasından ibarətdir. Kifayət qədər əminlik dedikdə yüksək əminlik səviyyəsi nəzərdə tutulur. Lakin belə əminlik səviyyəsi Beynəlxalq Audit Standartlarına uyğun auditin aparılması zamanı bütün əhəmiyyətli təhriflərin aşkarlanmasına zəmanət vermir. Fırıldaqçılıq və ya səhv nəticəsində yarana biləcək təhriflər o halda əhəmiyyətli hesab edilir ki, onlar ayrı ayrılıqda və ya bütövlükdə maliyyə hesabatları əsasında istifadəçilərin qəbul etdikləri iqtisadi qərarlara təsir göstərə bilsin.

Beynəlxalq Audit Standartlarına uyğun aparılmış audit çərçivəsində biz auditin aparıldığı bütün müddət ərzində peşəkar mülahizələr irəli sürür və peşəkar skeptisizmi saxlayırıq. Bundan əlavə biz:

- Fırıldaqçılıq yaxud səhv nəticəsində yaranmasından asılı olmayaraq maliyyə hesabatlarının əhəmiyyətli dərəcədə təhrif edilməsi risklərini müəyyən edir və qiymətləndirir, bu risklərə qarşı audit prosedurları işləyib hazırlayır və tətbiq edir; rəyimizin bildirilməsi üçün yetərli və müvafiq əsası təmin edən audit sübutu əldə edirik. Fırıldaqçılıq nəticəsində yaranan əhəmiyyətli təhriflərin aşkar edilməməsi riskindən yüksəkdir. Belə ki, fırıldaqçılıq gizli sövdələşmə ,saxtakarlıq ,məlumatların bilərəkdən göstərilməməsi, təhrif edilmiş şəkildə təqdim edilməsi və ya daxili nəzarət sistemində sui-istifadə hallarını nəzərdə tutur.
- Şirkətin daxili nəzarət sisteminin effektivliyi barədə rəy bildirmək üçün deyil, şəraitə uyğun audit prosedurlarının işlənib hazırlanması məqsədilə audit üçün əhəmiyyətli olan daxili nəzarət sistemi üzrə məlumat əldə edirik.
- Tətbiq edilən uçot siyasətlərinin uyğunluğunu, uçot təxminlərinin və rəhbərlik tərəfindən hazırlanmış müvafiq açıqlamaların əsaslı olduğunu qiymətləndiririk.
- Fəaliyyətin fasiləsizliyi ilə bağlı rəhbərliyin mülahizələrinin uyğunluğunu və əldə edilmiş audit sübutlarına əsasən Şirkətin fasiləsiz fəaliyyət göstərmək qabiliyyəti ilə bağlı əhəmiyyətli dərəcədə şübhə yarada biləcək hadisə və şərait üzrə qeyri müəyyənliyin mövcud olub olmaması dair fikir bildiririk. Əhəmiyyətli qeyri-müəyyənliyin mövcud olduğu barədə nəticəyə gəldikdə, biz auditor rəyimizdə diqqəti maliyyə hesabatlarındakı müvafiq açıqlamalara cəlb etməli, belə açıqlamalar yetərli olmadıqda, rəyimizi dəyişdirməliyik. Nəticələrimiz auditor hesabatının tarixinədək əldə edilmiş audit sübutlarına əsaslanır. Lakin gələcək hadisə və şəraitlər Şirkətin fasiləsiz fəaliyyət göstərmək qabiliyyətini dayandırmasına səbəb ola bilər.
- Maliyyə hesabatlarının ümumi təqdimatını, strukturunu, məzmununu, o cümlədən açıqlamaları və maliyyə hesabatlarında mövcud əməliyyatlar və hadisələrin düzgün təqdim edilməsini qiymətləndiririk.

Biz korporativ idarəetmə üzrə cavabdeh olan şəxslərə digər məsələlərlə yanaşı, planlaşdırılan audit prosedurlarının həcmi və vaxtı, əhəmiyyətli audit nəticələri, eləcə də audit prosesində müəyyən etdiyimiz daxili nəzarət sistemindəki əhəmiyyətli çatışmazlıqlar barədə məlumat təqdim edirik.

Auditor İlkin Zərbəliyev
20 İyun 2017-ci il
Bakı, Azərbaycan Respublikası

MOSS ADAMS AZƏRBAYCAN

Bakı, Azərbaycan Respublikası, AZ 1065, Yasamal rayoun, C. Cabbarlı küç 44 Caspian Plaza, 14-cü mərtəbə, Tel/ Fax: (+994 12) 480 63 12, Mobil: (+994 50) 235 29 30, E-mail: office@mossadams.az, Lisenziya № 080848, AT/117

**"RH" MMC-nin Konsolide edilmiş maliyyə vəziyyəti haqqında hesabat**
**31 Dekabr 2016-cı il tarixe (Azərbaycan manatı ilə)**

| Aktivlər | | 31 Dekabr 2016 |
|---|---|---|
| **Uzunmüddətli aktivlər** | | |
| Torpağ, tikili və avadanlıq | | 4,516,187 |
| Qeyri maddi aktivlər | | 707 |
| **Cəmi uzunmüddətli aktivlər** | | **4,516,894** |
| **Cari aktivlər** | | |
| Ticarət debitor və digər borclar | | 492,049 |
| Digər qısamüddətli debitor borclar | | 29,928 |
| Pul və pul vəsaitlərin ekvivalentləri | | 92,061 |
| Digər cari aktivlər | | 13,298 |
| **Cəmi cari aktivlər** | | **627,336** |
| **Cəmi aktivlər** | | **5,144,230** |
| **Öhdəliklər** | | |
| **Cari öhdəliklər** | | |
| Ticarət və digər öhdəliklər | | 3,905,034 |
| Dividend öhdəlikləri | | - |
| **Cəmi cari öhdəliklər** | | **3,905,034** |
| **Cəmi öhdəliklər** | | **3,905,034** |
| **Kapital** | | |
| Nizamnamə kapitalı | | 100 |
| Əlavə kapital | | 609,256 |
| Bölüşdürülməmiş mənfəət | | 315,066 |
| **Cəmi kapital** | | **924,422** |
| Nəzarət olunmayan iştirak payı | | 314,774 |
| **Yekun kapital** | | **1,239,196** |
| **Cəmi kapital və öhdəliklər** | | **5,144,230** |

**Konsolidə edilmiş mənfəət və ya zərər və digər məcmu gəlirlər haqqında hesabat**
***31 dekabr 2016 cı il tarixində başa çatmış il üzrə (Azərbaycan manatı ilə)***

| | 2016 |
|---|---|
| Gəlir | 2,255,129 |
| **Xalis gəlir** | **2,255,129** |
| Ümumi və inzibati xərclər | (1,767,363) |
| **Əməliyyat mənfəəti** | **487,766** |
| Dividend gəliri | - |
| Məzənnə fərqi | - |
| **Mənfəət vergisindən əvvəlki gəlir** | **487,766** |
| Mənfəət vergisi xərci | (100,636) |
| **İl üzrə xalis mənfəət** | **387,130** |
| **Cəmi xalis mənfəətə aiddir:** | |
| Qrupun təsisçilərinə | 335,713 |
| Nəzarət olunmayan iştirak payına | 51,417 |
| **İl üzrə xalis mənfəət** | **387,130** |

**Konsolidə edilmiş kapitalda dəyişikliklər haqqında hesabat**
**31 Dekabr 2016 cı il tarixində başa çatmış il üzrə**
**(Azərbaycan manatı ilə)**

| | Nizamnamə kapitalı | Əlavə kapital | Bölüşdürülməmiş mənfəət | Baş müəssisənin təsisçilərinə aid olan cəmi kapital | Nəzarət olunmayan iştirak payı | Cəmi kapital |
|---|---|---|---|---|---|---|
| **31 dekabr 2015-ci il tarixinə** | **100** | **100,200** | **527,661** | **627,961** | **299,792** | **927,753** |
| İl üzrə xalis mənfəət/(zərər) | | | 335,713 | 335,713 | 51,417 | 387,130 |
| Xərclərin bağlanılması | | | (39,252) | (39,252) | (1,547) | (40,799) |
| Elan olunmuş dividendlər | | | | - | (34,888) | (34,888) |
| Əlavə kapital | | 509,056 | (509,056) | - | | - |
| **31 dekabr 2016-cı il tarixinə** | **100** | **609,256** | **315,066** | **924,422** | **314,774** | **1,239,196** |

**Konsolidə edilmiş pul vəsaitlərinin hərəkəti haqqında hesabat**
**31 Dekabr 2016 cı il tarixində başa çatmış il üzrə (Azərbaycan manatı ilə)**

| | | 2016 |
|---|---|---|
| Davam edən əməliyyatlar üzrə vergidən əvvəl mənfəət/(zərər) | | 487,766 |
| ***Pul vəsaitlərinə vergidən əvvəl mənfəəti yoxlamaq üçün düzəlişlər:*** | | |
| Köhnəlmə xərcləri ayırmaları | | 225,806 |
| ***Kapiatl dəyişiklikləri:*** | | |
| Ticarət və digər debitor borclarında azalma/ (artma) | 12 | (125,896) |
| Digər qısamüddətli debitor borclarında azalma/ (artma) | 13 | (29,928) |
| Digər cari aktivlərdə azalma/ (artma) | | 4,853 |
| Ticarət və digər öhdəliklərdə (azalma)/ artma | 15 | (33,538) |
| Dividend öhdəliklərində (azalma)/ artma | | (137,889) |
| **Əməliyyat fəaliyyətindən əldə edilmiş pul vəsaitləri** | | **391,174** |
| **Əməliyyat fəaliyyətindən daxil olan xalis pul vəsaitləri** | | **391,174** |
| **İnvestisiya fəaliyyəti üzrə pul vəsaitlərinin hərəkəti** | | |
| Əmlak, tikili və avadanlıqların alınması | 11 | (492,325) |
| Qeyri maddi aktivlərin alınması | 11 | (323) |
| **İnvestisiya fəaliyyətindən xalis pul vəsaitləri** | | **(492,648)** |
| **Maliyyə fəaliyyətindən yaranan pul vəsaitlərinin hərəkəti** | | |
| Dividend ödənilməsi | | (176,000.00) |
| **Maliyyələşdirmə fəaliyyətindən daxil olan xalis pul vəsaitləri** | | **(176,000)** |
| **Nağd vəsaitlərdə xalis artım / (azalma)** | | **(277,474)** |
| **İlin əvvəlinə olan pul vəsaitləri** | | **369,535** |
| **İlin sonuna pul vəsaitləri** | | **92,061** |

SİYASİ RAKURS

# ÜAK-ın ləğvindən sonra müxalifətin əlinə girəvə düşüb

## *Yaxud Rüstəm İbrahimbəyov kartı yenidən ortada*

***Bəlli olduğu kimi, bir müddət bundan öncə, erməni lobbisinin və Rusiyada fəaliyyət göstərən ermənipərəst siyasi dairələrin təzyiq və təhdidləri nəticəsində Ümumrusiya Azərbaycan Konqresinin fəaliyyətinə məhkəmə tərəfindən xitam verildi. Səbəb də adıçəkilən təşkilatın Azərbaycanın təbliğatında oynadığı rol ermənilərı və onların Rusiyadakı havadarlarını ciddi narahat edirdi. Bu günlərdə əldə etdiyimiz məlumata görə, sözügedən məsələdə Azərbaycandakı dağıdıcı müxalifət dairələrinin öz xeyirlərinə yararlanmaq istəkləri ilə bağlıdır ki, burada uzun müddətdir səsi-sorağı gəlməyən Rüstəm İbrahimbəyovun da adı hallanır.***

### Son dövrlərə qədər səsi-pəsi gəlməyən İbrahimbəyov bu dəfə yenidən bəzi qüvvələrin əlində oyuncağa çevrilərək, yeni təşkilatın yaradılması prosesinə qoşulmaq üzrədir

Xatırladaq ki, hələ 2013-cü il prezident seçkiləri ərəfəsində Rusiyanın anti-Azərbaycan xarakterli siyasi dairələri tərəfindən sifarişlə yaradılan "Milli Şura"nın ilk sədri və "vahid namizədi" olmuş R.İbrahimbəyovun yenidən ortaya çıxması arxasında bəzi pərdəarxası məqamlar dayanmaqdadır. Daha dəqiq desək, 2013-cü ildə onun "Milyarderlər İttifaqı"nın rəhbərliyində yer almış Söyün Sadıqovla münasibətləri nəticəsində, "Milli Şura"ya maliyyə axını başlamışdı. Ancaq R.İb-



rahimbəyovun "Milli Şura"nın "vahid namizədi" olmasına rəğmən, ölkəyə geri dönməməsi sonradan onun və xidmət göstərdiyi qaranlıq dairələrin gələcək planlarının üzərindən çalın-çarpaz xətt çəkmiş oldu. Hətta iş o yerə qədər inkişaf etdi ki, S.Sadıqov da R.İbrahimbəyovdan əlini üzməli oldu. Beləliklə, son dövrlərə qədər səsi-pəsi gəlməyən İbrahimbəyov bu dəfə yenidən bəzi qüvvələrin əlində oyuncağa çevrilərək, yeni təşkilatın yaradılması prosesinə qoşulmaq üzrədir.

### Rüstəm İbrahimbəyov Abbas Abbasovun təklifini niyə rədd edib?

Bununla bağlı əldə edilən digər məlumata görə, ÜAK-ın işinə xitam verildikdən sonra digər siyasi fərd, sabiq baş nazir Abbas Abbasovun da yenidən aktivləşməsi barədə məlumatlar yayılıb. Yəni digər qaranlıq dairələrlə yanaşı, o da yeni təşkilat yaratmaq ideyası ilə çıxış edib və Moskvada fəaliyyət göstərən bəzi iş adamları ilə danışıqlara başlayıb. O cümlədən, A.Abbasov R.İbrahimbəyovun Azərbaycan əleyhinə fəaliyyət göstərən ermənipərəst qüvvələr tərəfindən ələ alınması barədə informasiyalara malik olduqdan sonra, o, bu məsələdə rejissoru yayındırmağa çalışıb, yenidən siyasi bataqlığa bulaşmaması barədə tövsiyələrini verib. Hətta A.Abbasov R.İbrahimbəyova yaradılacaq təşkilatında həmsədr olmaq təklifini də irəli sürüb.

Ancaq R.İbrahimbəyov ona edilmiş təklifləri qulaqardına vuraraq, bir sıra bəhanələr irəli sürməklə, danışıqlardan imtina edib. Ancaq tərəflər bu günlərdə telefonla əlaqə yarada biliblər. R.İbrahimbəyov isə açıq şəkildə bildirib ki, onun başqa planları var. Məhz bu cavabından sonra A.Abbasov R.İbrahimbəyovu qorxaqlıqda və xəyanətkarlıqda günahlandıraraq söhbətə son qoyub.

### Əli Kərimli ilə Rüstəm İbrahimbəyov arasında gizli telefon danışığı aparılıb?

Bu arada isə, bəlli olub ki, ÜAK-ın bağlanmasının ardınca, Rusiyadakı ermənipərəst dairələrdən yararlanmağa çalışan AXCP sədri Ə.Kərimli ilə R.İbrahimbəyov arasında gizli telefon danışığı aparılıb və birinci ikinciyə müəyyən məsələlərdə məsləhətlər verib. Söz yox ki, bütün bunlardan sonra İbrahimbəyov yenidən özünü müxalifət "lideri" kimi hiss etməyə başlayıb. Amma görünən digər məsələ isə budur ki, dağıdıcı müxalifətin Ə.Kərimli kimi simasızı ölkə və dövlət əleyhinə yönəlmiş istənilən addımlarda aparıcı rol almağa çalışır və onun Rusiyadakı emissarı R.İbrahimbəyov bu məsələdə onun üçün əla fürsətdir.

Bütün bunlara rəğmən, R.İbrahimbəyovun Azərbaycan əleyhinə fəaliyyət göstərəcək qurum yaradacağı inandırıcı görünmür. Çünki bu məsələdə ona dəstək olan yoxdur. Hətta böyük pullar hesabına olsa belə, İbrahimbəyovun təkliflərinin rədd edilməsi bəri başdan görünür.

***Rövşən RƏSULOV***

# Magistraturaya plan yerləri 80,92% dolub

***2017/2018-ci tədris ili üçün Azərbaycanın ali təhsil müəssisələrinin və AMEA-nın magistraturalarına qəbul 70 proqram üzrə aparılıb və proqramlar üzrə müsabiqə vəziyyəti müxtəlif olub. Dövlət İmtahan Mərkəzindən SİA-ya verilən məlumata görə, ayrılan 7 703 plan yerinə 6 233 bakalavr (onlardan 2352 nəfəri dövlət sifarişi əsasında) qəbul olub və plan yerləri 80.92% dolub.***

Ancaq proqramlar üzrə ayrılan plan yerlərinin dolma göstəriciləri fərqlidir. Misal üçün, proseslərin avtomatlaşdırılması, geodeziya və xəritəçilik, kimya, fövqəladə hallar və həyat fəaliyyətinin təhlükəsizliyi mühəndisliyi, coğrafiya, əczaçılıq və xüsusi təyinatlı hərbi ixtisaslara aid 13, 17, 18, 24, 25, 34, 55, 59, 61, 62, 63, 67 saylı proqramlara ayrılmış plan yerləri 100% dolub. Ən aşağı müsabiqə vəziyyətinin formalaşdığı dağ-mədən mühəndisliyi, filologiya və tərcümə, dinşünaslıq, balıqçılıq sahələrinə aid 29, 39, 41, 43, 51, 52, 69 saylı proqramlara ayrılmış plan yerlərinin 50%-dən çoxu boş qalmışdır. Bu proqramlar üzrə plan yerlərinin tam dolmayacağı əvvəlcədən məlum idi. Belə ki, həmin proqramlar üzrə ixtisaslaşma seçiminə buraxılan bakalavrların sayı plan yerlərindən az idi. Qeyd edək ki, ali təhsil müəssisələrinin magistratura səviyyəsinə qəbul olanlar 2017-ci il iyunun 29-dan iyulun 10-dək (şənbə və bazar günləri istisna olmaqla) tələb olunan sənədləri təqdim etməklə qəbul olduqları ali təhsil müəssisəsində qeydiyyatdan keçməlidirlər. Qeyd olunan



müddətdə sənədləri təqdim etməyən və qeydiyyatdan keçməyən bakalavrlar qəbul olanlar siyahısından xaric ediləcəklər. Magistr proqramları üzrə boş qalan yerləri olan ixtisaslaşmalara müsabiqə yolu ilə yerləşdirmə 2017-ci ilin avqust ayında aparılacaqdır. Həmin yerlərin siyahısı və müsabiqədə iştirak etmək üçün elektron ixtisas seçimi haqqında elan DİM-in internet saytında və "Magistr" jurnalının növbəti sayında təqdim ediləcək. Xatırladaq ki, təqdim olunan statistik məlumatlar qəbul olduqdan sonra qeydiyyatdan keçməyənlərə və boş qalan plan yerlərinə əlavə yerləşdirmə aparılacağına görə dəyişəcək.



**SAMİR**

# Xainin buynuzu olmur ki!..

***"Ümid" partiyasının sədri İqbal Ağazadə 2015-ci ilin payızından bu yana nə danışırsa, dediklərini nə özü başa düşür, nə də başqaları. Bu adamın ötən əsrin 90-cı illərdəki hoqqabazlıqları tamamilə açılıb-tökülməli idi ki, camaat içinə çıxa bilməsin. İqbal əkə görün indi nə deyir: "İqtidar-müxalifət dialoqu olmasa, terror hadisələri Azərbaycana keçə bilər".***

Paho, şantaja baxın! Milli Məclisdə deputat olanda, heç belə demirdin, ay İqbal! Yaxud 2014-cü ildə verdiyin müsahibədə iqtidar-müxalifət dialoqunun lazım olmadığını züy tutub aləmə car çəkəndə, niyə belə danışmırdın? Əslində, İqbal əkə bu cümləni işlətməklə, istəyib ki, "lider" kimi danışsın, ancaq alınmayıb. Dolayısı ilə etiraf edib ki, "Ümid" də daxil olmaqla, digər dağıdıcı müxalifət partiyaları ölkədə terrorun baş verməsində maraqlıdırlar. Sözü də dolayısı ilə belə deyir: "... əgər bizimlə dialoqa getməsəniz terror edəcəyik, ən azından onları dəstəkləyəcək...". Məgər sizin partiya da, AXCP də, Müsavat da, KXCP də, "Nida" da terroru dəstəkləmirmi? Ə.Kərimlinin doğmaca əmisi oğlu İnqilab Kərimov "İŞİD"i ölkəmizə dəvət edib, "xoş gəlirsiniz Azərbaycana" deyəndə, axı sən də susmuşdun. Sən də bunda maraqlı idin və bu gün də maraqlısan. Dövləti və milləti təhdid etmək nəyə gərək? Bu, kişiyə yaraşmaz, kişi ol! Bir deputat mandatına görə özünü tamam açıb buraxmısan. İqbal əkə həm də bu cümlə ilə etiraf edir ki, dağıdıcı müxalifəti terrorçu təşkilatlar dəstəkləyirlər. Buna da şəkk-şübhəmiz yoxdur, bəli, dağıdıcı müxalifəti kimlər dəstəkləmir ki? Qərbin müsəlman dövlətlərinə inqilablar ixrac edən təşkilatları, Ermənistanın bir neçə müxalifət partiyaları, Türkiyəni bölmək istəyən imperialistlər, Azərbaycanın güclənməsinə mane olmağa çalışan ermənipərəst qüvvələr və s. Ancaq bu məkrli qüvvələr, nə də bu qüvvələrin ölkəmizdəki qulbeçəsinə çevrilən dağıdıcı müxalifət heç vaxt pozucu istəklərinə nail ola bilməyəcəklər.

İqbal əkə necə bir mikrob olduğunu çox gözəl bilir, ancaq zir-zibillərinin gec-tez ifşa olunacağını bilir. Mən bu adamı çox gözəl tanıyıram, məsləhət görürəm ki, ətrafına baxsın, nə işlər çevirdiyini dərk eləsin. Vaxtilə qapı-qapı gəzib, "atalıq" umduğun adamlar hələ də yaşayır, ay İqbal! Polis haqq-hesabı zad... Yoxsa abrını tamam itirmisən və sabah sənin haqqında bütün faktlar açıqlansa, yenə də qınına girməyə zadın çatmayacaq!? Başının diametri 4 hektar olan birindən dövləti terrorla təhdid etməkdən başqa da nə danabaşlıq desən, gözləmək olar. 3-5 partiya bir yerə yığışıb özlərini idarə edə bilmirlər, ancaq dialoq tələb edirlər.

Dünən eşitmişəm ki, İsgəndər Həmidov yenə də ətrafına beş-on nəfər adam yığaraq, xırda toplantı keçirib. Yadınızdadırsa, bu adamın 2005-ci ildə çıxarmadığı hoqqa qalmadı. O vaxt partiyasında ləhcəsinə görə insanları qruplara da bölmüşdü. İndi yeni bir toplantı keçirib, yeni bir təşkilat yaratmaq istəyirlər, adını da "Bakı Ziyalılar Birliyi" qoyurlar. Adil adında bir lətifəbazı da qoyublar ora sədr. Həmin Adil ki, Lalə Şövkətin... Nə isə... Utanmırlar, oynayırlar, burda təəccüblü nə var ki?! "Ziyalılar Forumu" hansı gülə dərman oldu ki, bu da bir zad olsun. Qısası, İ.Həmidovun da başı qaçıb, vallah! Qalıb ortalıqda.

# Azərbaycanda vətəndaşların ekoloji hüquqlarına dair

**_Vətəndaşların ekoloji hüquqları Azərbaycanın ətraf mühit hüququnda əsas yer tutur. Ətraf mühitin qorunmasının antroposentrist konsepsiyaları insanın maraqları naminə ekoloji məsələlərin həlli ideyasına əsaslanır. Məlum olduğu kimi, Azərbaycan Respublikasının Əsas Qanununda - Konstitusiyasında insan, onun hüquq və azadlıqları ən ali sərvət hesab olunur._**

İnsanın ekoloji hüququ dedikdə, fərdin təbiətlə qarşılıqlı əlaqəsi zamanı onun müxtəlif tələbatlarının ödənilməsini təmin edən qanunvericilikdə təsbit olunan hüquqları başa düşülür.

İnsanın ekoloji hüquqları mövcud qanunlarla tənzim olunur. Məsələn, Ətraf Mühitin Mühafizəsi haqqında Azərbaycan Respublikası qanununda ətraf mühitin mühafizəsi sahəsində hüquqlar və vəzifələr aşağıdakı kimi qruplaşdırılmışdır:

1. Ətraf mühitin mühafizəsi sahəsində dövlətin hüquqları və vəzifələri;
2. Ətraf mühitin mühafizəsi sahəsində yerli özünüidarəetmə orqanlarının səlahiyyətləri;
3. Ətraf mühitin mühafizəsi sahəsində vətəndaşların hüquqları və vəzifələri;
4. Ətraf mühitin mühafizəsi sahəsində ictimai birliklərin hüquqları və vəzifələri.

Ətraf mühitin mühafizəsi sahəsində dövlətin hüquqları və vəzifələri aşağıdakılardır:

- Dövlət siyasətinin əsas istiqamətlərini, onun həyata keçirilməsi üçün strateji tədbirləri hazırlamaq;
- Ətraf mühitin mühafizəsi sahəsində təsərrüfat və başqa fəaliyyətin ekoloji tarazlığa olan keyfiyyət normativlərini işləmək və təsdiq edilməsi qaydalarını müəyyən etmək;
- Ətraf mühitin mühafizəsinin dövlət fondları haqqında əsasnamələri təsdiq etmək;
- Qanunvericiliyə müvafiq olaraq təbii resursların istifadəyə verilməsi haqqında qərarları qəbul etmək, təbiətdən istifadəyə görə limitləri və kvotalatı müəyyən etmək, müqavilələri (kontraktları) bağlamaq;
- Təbiətdən istifadəçilərə (sahibkarlıq fəaliyyəti ilə məşğul olan hüquqi və fiziki şəxslərə) lazımi xüsusi icazənin verilməsi üçün təbiətdən istifadə formalarının siyahısını və bu xüsusi icazələrin verilməsi qaydalarını təsdiq etmək.
- Ətraf mühitin mühafizəsi sahəsində dövlətin vəzifələri:
- Ətraf mühitin ekoloji tarazlıq və təbiətdən istifadənin müxtəlif sahələri üzrə proqramları hazırlamaq; dövlət ekoloji ekspertizasını təşkil etmək;
- Ətraf mühitin, heyvanlar və bitki aləminin mühafizəsinə, bərpasına və istifadəsinə dövlət nəzarətini həyata keçirmək;
- Heyvanlar və bitki aləminin nadir və yer üzündən yox olması təhlükəsinə məruz qalmış növlərinin dövlət kadastrını aparmaq ("Qırmızı kitabı" nəşr etmək);
- Beynəlxalq əməkdaşlığı həyata keçirmək;
- Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun digər vəzifələri həyata keçirməkdir.

Ətraf mühitin mühafizəsi sahəsində vətəndaşların hüquqları və vəzifələri aşağıdakılardır:

- Ətraf mühitin mühafizəsi sahəsində vətəndaşların, vətəndaşlığı olmayan şəxslərin və əcnəbilərin (bundan sonra vətəndaşların) hüquqları;
- Hər bir vətəndaş həyatı və sağlamlığı üçün əlverişli ətraf mühitin olması, onun vəziyyəti və vəziyyətinin yaxşılaşdırılması barədə tədbirlər haqqında dəqiq məlumat almaq;
- Ətraf mühitin mühafizəsi haqqında qanunvericiliyin pozulması nəticəsində onların sağlamlığına və əmlakına vurulan zərərə görə ödənc almaq;
- Sağlamlıq və həyat üçün əlverişli olan ətraf təbii mühitdə yaşamaq;
- Müəyyən edilmiş qaydada təbii resurslardan istifadə etmək, onların mühafizəsi və bərpası üzrə tədbirlər həyata keçirmək, ətraf mühitin mühafizəsində və sağlamlaşdırılmasında iştirak etmək;
- Qanunvericilikdə müəyyən edilmiş qaydada ətraf mühitin mühafizəsinə aid yığıncaqlarda, mitinqlərdə, piketlərdə, yürüşlərdə və nümayişlərdə, referendumlarda iştirak etmək;
- Ətraf mühitin mühafizəsinə dair dövlət hakimiyyət orqanlarına və təşkilatlarına müraciət etmək;
- İctimai ekoloji ekspertiza haqqında təkliflər vermək;
- İnsan həyatına və ətraf mühitə mənfi təsir göstərən müəssisələrin, qurğuların və başqa ekoloji zərərli obyektlərin yerləşdirilməsi, tikintisi, yenidən qurulması və istismara verilməsi haqqında qərarların inzibati və ya məhkəmə qaydasında ləğv edilməsini və həmçinin, fiziki və hüquqi şəxslərin fəaliyyətinin məhdudlaşdırılmasını, müvəqqəti dayandırılmasını və hüquqi şəxslərin ləğv edilməsini tələb etmək;
- Ətraf mühitin mühafizəsi haqqında qanunvericiliyin pozulması nəticəsində təqsirkar təşkilatların, vəzifəli şəxslərin və vətəndaşların məsuliyyətə cəlb edilməsi barədə müvafiq orqanlar və məhkəmələr qarşısında iddialar qaldırmaq;
- Qanunvericilikdə nəzərdə tutulan başqa hüquqlarını müəyyən edilmiş qaydada həyata keçirmək;

Ətraf mühiti qorumaq hər bir kəsin vəzifəsidir.

Ətraf mühitin mühafizəsi sahəsində ictimai birliklərin hüquqları və vəzifələri aşağıdakılardır:

- İctimai birliklərin ətraf mühitin mühafizəsi sahəsində hüquqları;
- Özünün ekoloji proqramlarını işləmək və təbliğ etmək, ətraf mühitin mühafizəsi sahəsində vətəndaşların hüquqlarını və maraqlarını müdafiə etmək, onları bu işdə fəaliyyətə cəlb etmək;
- Ətraf mühitin mühafizəsi sahəsində ictimai nəzarəti həyata keçirmək;
- Dövlət orqanlarından və təşkilatlarından ətraf mühitin vəziyyətinə və onun bərpasına dair tədbirlər barədə vaxtında, tam və dəqiq məlumat almaq;
- Məyyən işlərin yerinə yetirilməsi üzrə qanunvericiliklə nəzərdə tutulmuş ətraf mühitin mühafizəsi sahəsində dövlət orqanları və beynəlxalq təşkilatlar ilə müqavilə əsasında əməkdaşlıq etmək;
- Ətraf mühitin mühafizəsi sahəsində qanun layihələrinin müzakirəsində iştirak etmək;

Azərbaycanda ekoloji hüquqların siyasi və yuridik əhəmiyyəti vardır. Ölkəmizdə insan və vətəndaşların ekoloji hüququnun tənzimlənməsi yalnız ayrı-ayrı fərdlər üçün deyil, bütövlükdə, cəmiyyət və dövlət üçün əhəmiyyət kəsb edir. Azərbaycan dövləti sosial məsuliyyətli dövlət kimi bu hüquqları həyata keçirərək, dövlətin təbiət-mühafizə fəaliyyətinin səmərəliliyini yüksəldə bilər. Ekoloji hüquqların ardıcıl reallaşması zamanı onun yuridik əhəmiyyəti daha da artır.

Ətraf mühitin mühafizəsi haqqında Azərbaycan Respublikası qanunda ətraf mühitin mühafizəsi sahəsində dövlət nəzarətinin reallaşması da nəzərdə tutulur. Ətraf mühitin mühafizəsi sahəsində dövlət nəzarəti zamanı aşağıdakılar nəzərdə tutulur:

- Ətraf mühitin mühafizəsi sahəsində dövlət nəzarətini müvafiq icra hakimiyyəti orqanları bu Qanunun və "Sahibkarlıq sahəsində aparılan yoxlamaların tənzimlənməsi və sahibkarların maraqlarının müdafiəsi haqqında" Azərbaycan Respublikası Qanununun tələblərinə uyğun olaraq həyata keçirirlər;

Ətraf mühitin mühafizəsi sahəsində dövlət nəzarətini həyata keçirən müvafiq icra hakimiyyəti orqanlarının hüquqları:

- Qanunvericilikdə müəyyən edilmiş qaydada mülkiyyət formasından və tabeliyindən asılı olmayaraq, müəssisə, idarə, təşkilatlara və digər obyektlərə, o cümlədən, hərbi və müdafiə obyektlərinə maneəsiz (xidməti vəsiqələri, sahibkarlıq fəaliyyəti ilə məşğul olan hüquqi və fiziki şəxslərin obyekttərinə daxil olarkən, həmçinin, yoxlamanın həyata keçirilməsi haqqında qərarın surətini və yoxlamanın sahibkarlıq sahəsində aparılan yoxlamaların vahid məlumat reyestrində qeydiyyata alınması barədə çıxarışı təqdim etməklə) daxil olmaq, öz xidməti vəzifələrini yerinə yetirmək üçün zəruri olan sənədlərlə, o cümlədən, analizlərin nəticələri ilə pulsuz tanış olmaq;
- Ətraf mühitin mühafizəsi və sağlamlaşdırılması, təbii resursların bərpası və istifadəsi sahəsində tədbirləri yerinə yetirmək, ətraf mühitin mühafizəsi haqqında qanunvericiliyinə keyfiyyət normativlərinə və ekoloji tələblərinə əməl etmək, tənzimləyici və başqa zərərsizləşdirici qurğuların, onların nəzarət vasitələrinin işini yoxlamaq;
- Təbii ehtiyatlardan istifadə və ətraf mühitin mühafizəsi sahəsində ayrı-ayrı fəaliyyət növlərinin həyata keçirilməsi üçün verilən xüsusi icazənin, təbiətdən istifadə müqavilələrinin (kontraktların) və xüsusi icazələrinin şərtlərinə əməl edilməsini yoxlamaq, qanunvericiliyə uyğun olaraq onlara xitam vermək barədə vəsatət qaldırmaq;
- Dövlət ekoloji ekspertizasının nəticələrinin yerinə yetirilməsinə nəzarət etmək;
- Ekoloji tələblərin və ətraf mühitin keyfiyyət normativlərinin pozulması ilə həyata keçirilən ekoloji cəhətdən təhlükəli yüklərin (məmulatların), tullantıların və xammal ehtiyatların Azərbaycan Respublikasının ərazisinə gətirilməsinin və həmçinin, onun ərazisindən tranzit yolu ilə aparılmasının qadağan olunması haqqında qanunvericiliyə uyğun olaraq sərəncamlar vermək;
- Ətraf mühitin mühafizəsi sahəsində pozuntuların aradan qaldırılmasına dair fiziki və hüquqi şəxslərə tələblər irəli sürmək;
- Ekoloji tələblərin pozulması ilə əlaqədar müəssisələrdə, qurğu və obyektlərdə həyata keçirilən işlərin məhdudlaşdırılması və müvəqqəti dayandırılması, o cümlədən, maliyyələşdirilməsinin dayandırılması, onların istismara verilməsinin qadağan edilməsi, təsərrüfat və başqa fəaliyyətlərin məhdudlaşdırılması və ya bu fəaliyyətə xitam verilməsi haqqında vəsadət qaldırmaq;
- Qanunvericilikdə müəyyən edilmiş qaydada ətraf mühitin mühafizəsi sahəsində inzibati xətalar haqqında işlərə baxmaq, təqsirkarların inzibati və ya cinayət məsuliyyətinə cəlb edilməsi barədə materialları müvafiq orqanlara göndərmək;
- Ətraf mühitin mühafizəsi sahəsində qanunvericiliyin pozulması nəticəsində vurulmuş zərərin həcmlərini müəyyən etmək (müəyyən edilməsində iştirak etmək) və bunun əsasında təqsirkar olan şəxslərə bu zərərin könüllü ödənilməsi barədə tələblər irəli sürmək və ya iddialarını məhkəməyə təqdim etmək;
- Ətraf mühitin mühafizəsi sahəsində müəssisə (istehsalat) nəzarəti qaydalarının və normalarının gözlənilməsini yoxlamaq;
- Qanunvericiliklə müəyyən edilmiş digər hüquqlardan istifadə etmək;
- Ətraf mühitin mühafizəsi sahəsində dövlət nəzarətinin həyata keçirilməsi ilə əlaqədar verilmiş qərarların icrası bütün hüquqi və vəzifəli şəxslər, vətəndaşlar üçün məcburidir və onlardan tabeçilik və ya məhkəmə qaydasında şikayət edilə bilər.

**_Vahid Ömərov,_**
**_fəlsəfə üzrə fəlsəfə doktoru_**




*Bu yazı Azərbaycan Respublikası Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyi ilə "İnsan hüquq və azadlıqlarının müdafiəsi, vətəndaşların hüquqi, siyasi mədəniyyət səviyyəsinin yüksəldilməsi, sosial və siyasi fəallığının artırılması" istiqaməti çərçivəsində hazırlanıb*

# SƏS

**Son səhifə** **23 iyun**

## *Xəbərdarlıq: Görmə qabiliyyətini qorumaq üçün balıq yeyin*



Son təcrübələr göstərir ki, həftədə 1-2 dəfə balıq yeyən qadınların yaş ötdükcə görmə qabiliyyətinin zəifləməsi riski yarıbayarı azalır.

Balığın tərkibindəki omeqa-3 yağ turşusu təkcə arıqlamaq istəyənlər üçün faydalı deyildir. Bu həm də gözün tor qişasındakı sarı ləkənin (bu sahə tor qişada görmə qabiliyyətinin itiliyinə cavabdehdir) yaşla əlaqədar degenerasiyasının qarşısını alır. Ahıl yaşlı qadınlar görmə qabiliyyətlərinin zəifləməməsi üçün həftədə bir-iki dəfə balıq yeməlidirlər. Kişilərin görmə qabiliyyəti üçün balığın faydası artıq təsdiq olunub. Alimlərin 10 il müddətində 38 min qadın üzərində apardığı tədqiqatlar göstərib ki, sarı ləkə həftədə 2 dəfədən az balıq yeyən qadınlarda daha çox degenerasiyaya uğrayıb. Tədqiqatın rəhbəri, Harvard tibb məktəbinin doktoru Uilyan Kristenin sözlərinə görə, "tünd ət"i olan balıqlar - qızıl balıq, sardina, skumbriya və başqaları bu baxımdan daha faydalıdır.

## *Səhər yeməyindən imtina etmək ürək üçün zərərlidir*



Amerika alimlərinin qənaətinə görə, səhər yeməyindən imtina nəinki qamət, həm də ürək üçün zərərlidir. Səhər bir fincan qəhvə ilə kifayətlənmək mənasızdır. Bundan əlavə, səhərlər ac qalmaq qanda olan pis xolestirinin artmasına, yəni ürək-damar xəstəliklərinin inkişafına səbəb olur. "The American Journal of Clinical Nutrition" jurnalında dərc edilmiş dietologiya və sağlam qida problemlərinə həsr olunmuş məqalədə deyilir: "Səhər yeməyinin təbliği səhiyyə sisteminin əsas vəzifələrindən biri olmalıdır". Bütün yaş qruplarında hər kəs üçün səhər yeməyi süd məhsulları, dənli bitkilər və soyuq, yaxud isti içkilərdən ibarət olmalıdır.

## *Vegetarianlıq göründüyü qədər də faydalı deyil!*



Alimlər belə qənaətə gəliblər ki, təkcə ət yeyənlər ürək xəstəliyi riskinə məruz qalmır. Sən demə, vegetarianlıq da bir o qədər təhlükəsiz deyildir. Vegetarianlar çox vaxt ateroskleroz və tromboza mübtəla olmaq riski ilə üzləşirlər. Vegetarianların yeməyində dəmir, sink, B 12 vitamini və omeqa-3 piy turşusu kimi bir çox zəruri mikroelementlər çatışmır. Əvəzedilməz piy turşuları xüsusi problem yaradır. Hətta tarazlaşdırılmış vegetarian rasionunda belə zülalın miqdarı kifayət qədər deyildir.

Vegetarianlıq pəhrizindən zərər görməmək üçün omeqa-3 piy turşularının və B 12 vitamininin miqdarını artırmaq lazımdır. Bunlardan birincisinin miqdarı balıq, qoz, habelə bitki yağlarının (raps, kətan və qoz yağı) tərkibində yüksəkdir. B12 vitamini isə əsasən heyvan mənşəli qidada, xüsusən dəniz və süd məhsullarında, yumurtanın tərkibində çoxdur. Odur ki, B12 vitamini çatışmazlığını aradan qaldırmaq üçün vegetarianlar xüsusi əlavələr qəbul etməlidirlər.

## ELAN

Dövlət Miqrasiya Xidməti tərəfindən İsmayılov İsmayıl Şövqi oğluna verilmiş müvəqqəti yaşayış üçün şəxsiyyəti təsdiq edən sənəd (MYİ № 0313911) itdiyi üçün etibarsız sayılır.

## "Force İndia"nın pilotu: "Bakıda yüksək nəticə qazanmaq üçün yarışacağıq"




"Komandamız Azərbaycan Qran-Prisində hansı məqsəd uğrunda mübarizə aparacağını yaxşı bilir. Biz Bakıda yüksək nəticə qazanmaq üçün yarışacağıq". SİA-nın məlumatına görə, bunu Formula 1 Azərbaycan Qran-Prisi öncəsi keçirilən mətbuat konfransında "Force İndia" komandasının pilotu Esteban Okon deyib. O, komanda yoldaşı ilə yaxşı münasibətlərinin olduğunu vurğulayıb: "Komanda yoldaşım məni keçərsə, məyus olmaram. Bir-birimizə hörmətlə yanaşırıq. Biz komanda üçün çalışırıq. Əlimizdən gələni edəcəyik ki, uğurlu çıxış edək".

## Valtteri Bottas: "Azərbaycan Qran-Prisi üçün xüsusi planımız var"



"Azərbaycan Qran-Prisinə yaxşı hazırlaşımıq. Çalışacağıq ki, Bakıda yüksək nəticə göstərək". SİA-nın məlumatına görə, bunu Formula 1 Azərbaycan Qran-Prisi öncəsi keçirilən mətbuat konfransında "Mercedes AMG" komandasının pilotu Valtteri Bottas deyib. O, sıralanma turundan sonra mövqeyinin yaxşı olmayacağı təqdirdə heç bir problem yaşamayacağını vurğulayıb: "Mövqeyimin pis olması çıxışıma təsir göstərə bilməz. Əvvəllər də yaxşı olmayan mövqelərdən yarışa başlamışam. Hesab etmirəm ki, bu, mənə nə isə çətinlik törətsin".

Pilot bildirib ki, komanda yoldaşları ilə münasibətləri yüksək səviyyədədir: "Biz bir-birimizi yaxşı başa düşürük. Azərbaycan Qran-Prisi üçün xüsusi planımız var. Bu planla çıxış edərək yüksək nəticə qazanmaq istəyirik".

## "Red Bull"un pilotları: "Bakı treki mövsümün ən sürətli trasıdır"



Formula 1 üzrə Azərbaycan Qran-Prisində mübarizə aparacaq "Red Bull" komandası mətbuat konfransı keçirib. SİA-nın məlumatına görə, Heydər Əliyev Mərkəzində təşkil edilən konfransda "Red Bull"un pilotları Daniel Rikkardo və Maks Ferstappen iştirak ediblər. Pilotlar Bakıda keçiriləcək yarışın maraqlı olacağını vurğulayıblar: "Bakı Şəhər Halqasının sürət rekordunu yeniləmək bu il çətin olacaq, amma biz bunu etməyə çalışcacağıq. Bakı treki mövsümün ən sürətli trasıdır. Bu il bolidlər geniş döngələrdə daha sürətli, düz xətli hərəkətlərdə isə daha ləng olublar. Bakıda dar döngələr var, ona görə də sürəti artırmaq olmur". Onlar Azərbaycan Qran-Prisində yüksək nəticələr əldə etməyə çalışacaqlarını bildiriblər: "Məqsədimiz fəxri kürsüdə qərarlaşmaq uğrunda mübarizə aparmaqdır". Xatırladaq ki, ötən il Bakı Şəhər Halqasında ən yüksək sürətə finlandiyalı pilot Valtteri Bottas imza atıb.

## Luiş Fiqu: "Ronaldo əvəzolunmaz deyil"



Portuqaliya millisinin sabiq futbolçu Luiş Fiqu "Real"ın futbolçusu Kriştiano Ronaldonun komandadan ayrılması xəbərlərinə münasibət bildirib. Qol.az-ın məlumatına görə, bu barədə ölkəsinin mətbuatına açıqlama verən veteran futbolçu Ronaldonun əvəzolunmaz olmadığını deyib: "Real" kimi komandaların adı klubun prezidenti daxil olmaqla hər kəsin adından böyükdür. Sadəcə, Ronaldo yox, heç kimin əvəzolunmaz olmadığını düşünürəm". O, həmyerlisinin Madrid klubundan ayrılmayacağına inanmadığını da söyləyib: "Bu, onun şəxsi qərarıdır. Əgər kimsə bir şeyin həqiqətən olmasını istəyirsə, alınacaq. Ancaq mən Kriştianonun "Real"dan ayrılacağını düşünmürəm". Qeyd edək ki, 2000-ci ildə 60 milyon avroya "Barselona"dan "Real"a keçən Fiqu Madrid klubu ilə iki dəfə La Liqa çempionluğunu və ölkə kubokunu qazanıb. Bir dəfə isə Çempionlar Liqasının və UEFA Superkubokunun qalibi olub.

## "Neftçi"dən getdi

Çexiyanın "Slovan" klubu "Neftçi"də icarə müddəti başa çatan futbolçusu Zdenek Folpexti geri qaytarıb. Qol.az-ın xəbərinə görə, bu barədə Liberets komandasının baş məşqçisi İndrjix Trpişovski yerli mətbuata açıqlamasında məlumat verib. O, 26 yaşlı yarımmüdafiəçinin yaxın vaxtlarda "Slovan"a qoşulacağını bildirib. Qeyd edək ki, qışda icarə əsasında "Neftçi"yə cəlb olunan Zdenek Folprext Topaz Premyer Liqada 13 oyuna 1 qol vurub.


*Baş redaktor:*
**Bəhruz Quliyev**
*Baş redaktorun müavinləri:*
**Valeh Məhərrəmli**
**Fətulla Həsənov**

**Ünvanımız: Bakı şəhəri, Üzeyir Hacıbəyov küçəsi, 32.**
**Şəhadətnamə:№ 022492**
**http://www.ses-news.az**
**http://www.sesqazeti.az**
**E-mail: ses@sia.az**
**Tel:598-33-90 Faks:493-11-62**

*Buraxılışa məsul: Mətləb Salahov*

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

Qəzet "Səs"in kompüter mərkəzində yığılır, səhifələnir.
"Azərbaycan" nəşriyyatında çap olunur
*Qəzetdə AzərTAc, SİA, APA və AZADİNFORM informasiya agentliklərinin məlumatlarından istifadə olunur.*

**Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur**
**Tiraj: 5500**